

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İsrailli politoloq: "Azərbaycan yalnız İsrailin deyil, həm də Qərbin böyük dostudur"



4

# Şuşada Vaqif poeziya günləri



10

SƏS

№ 124 (6807)

18 iyul 2023-cü il.
Qiymәti 60 qәpik

# Sülh savaşı: kim batil, kim doğru?



8

## Sorosun ardınca...



9

## "Bəşəriyyəti sürətli qiymət artımı və ərzaq problemləri gözləyir"



12

## Cırtdan ailələrin nəhəng problemləri



13



## Qazdan ayıq olmasaq...

15

## Ronaldo Messini üstələdi: Təkcə bu il 121 milyon avro qazanıb!



16

# Növbəti Brüssel görüşü: Azərbaycanın şərtləri yenə keçərli oldu

*Bu, Azərbaycan Prezidenti İlham Əliyev diplomatiyasının daha bir qələbəsidir*

**Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsi Avropa İttifaqının da marağındadır. Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən sonra bölgədə yeni reallıqlar yaradıb. Son proseslər göstərir ki, Avropa İttifaqı Azərbaycanın müəyyənləşdirdiyi gündəliyi, reallıqları qəbul edir. Təsadüfi deyil ki, Şarl Mişelin Brüssel görüşünün nəticələri ilə əlaqədar bəyanatında "Dağlıq Qarabağ" ifadəsi işlədilmir. Ümumiyyətlə, Avropa İttifaqı artıq qoşunların dislokasiya yerlərinin dəyişməsinə də Azərbaycanın daxili işi kimi yanaşır. Aİ Azərbaycanla Ermənistan arasında mövcud problemlərin tezliklə həll olunması və tərəflər arasında sülh sazişinin imzalanmasını dəstəkləyir.**



İyulun 15-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında sülh müqaviləsi üzrə aparılan danışıqların növbəti raundu baş tutdu.

Qeyd edək ki, buna qədər, yəni 44 günlük Vətən müharibəsindəki zəfərimizdən sonra liderlər Brüsseldə beş dəfə görüşmüşdülər. İyulun 15-də növbəti 6-cı görüşdə də Azərbaycanın şərtlri keçərli oldu. Hər iki tərəfin Avropa İttifaqına etimadı var. Burada xüsusilə, Şarl Mişelin Prezident İlham Əliyevlə şəxsi dialoqu və təmasları mühüm şərtdir. Prezident İlham Əliyev bütün dünyada nüfuzlu dövlət xadimi və xalqının maraqlarını qətiyyətlə qoruyan Lider kimi qəbul olunur. Bu səbəbdən də beynəlxalq birlik 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın regionda yaratdığı reallıqları qəbul edir. Şarl Mişelin bəyanatından da göründüyü kimi, Brüssel görüşünün nəticələri Azərbaycanın maraqlarına cavab verir.

Çünki Azərbaycan Ermənistanla beynəlxalq hüquq normaları əsasında sülh sazişi imzalamağa hazır olduğunu dəfələrlə bəyan edib və bu məqsədlə qarşı tərəfə beş bənddən ibarət təklif göndərib. Brüssel görüşündə bu məsələ də diqqət mərkəzində olub. Belə ki, görüşdə əldə olunmuş razılığa əsasən, ölkə rəhbərləri zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə müvafiq tapşırıq verəcəklər. Görüşdə qarşılıqlı etimad mühitinin yaradılması, humanitar addımlar, itkin düşən şəxslərin taleyi, minatəmizləmə prosesi ilə bağlı müsbət yanaşmalar ortaya qoyulub.

Bir sözlə, 6-sı Brüssel görüşü də əvvəlki görüşlər kimi Prezident İlham Əliyevin dövlət və milli maraqlarımızı qətiyyətlə qoruduğunu bir daha nümayiş etdirdi. Görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel mətbuata açıqlama verərək Avropa İttifaqı Azərbaycanın müəyyənləşdirdiyi gündəliyi, reallıqları qəbul edir.

## ŞARL MİŞEL: "Bugünkü görüş Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada intensiv və məhsuldar keçirilən yüksəksəviyyəli görüşlər silsiləsinin davamıdır"

"Bugünkü görüşümüz məhsuldar oldu. Bu görüşümüz mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada intensiv və məhsuldar keçirilən yüksəksəviyyəli görüşlər silsiləsinin davamıdır". Bu fikirləri Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında bildirib. O, Ermənistan və Azərbaycan liderlərinin sülh prosesinə sadiq qalmalarını təqdir etdiyini vurğulayıb.

## ŞARL MİŞEL: "Liderlər 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı bağlılıqlarını bir daha təsdiqlədilər"

Görüşün ən diqqətçəkən məqamı tərəflərin bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı tanınması, hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılmasının regionda davamlı sülh və sabitliyin təmini üçün yeganə yol olduğunu bəyan etmələridir. Şarl Mişel mətbuata açıqlamasında onu da bildirib ki, ilk dəfə rəqəmlərlə ifadə olunan, Azərbaycanın 86,6 min kv.km, Ermənistanın 29,8 min kv. km ərazisinin qarşılıqlı şəkildə tanındığı vurğulanıb: "Biz gündəlikdə olan bütün məsələləri müzakirə etdik. Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla, ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha tam şəkildə təsdiq etdilər".

"Tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası ilə bağlı danışıqlarda aşkar irəliləyiş əldə ediblər", fikrini söyləyən Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dildirdi ki, biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə hörmətlə yanaşacaq gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik.

Prinsip etibarilə rəsmi Bakı Ermənistanın ərazi bütövlüyünə hörmət edir və tanıyır. Eyni qaydada Azərbaycan 1991-ci ilin Alma-Ata Bəyannaməsinə zidd heç nə etməyib. Ermənistan isə Azərbaycan ərazilərinin 20 faizini işğal edərək bu Bəyannaməni pozan tərəf idi. İndiki məqamda rəsmi Bakının bəyannaməni qəbul edib Ermənistanın ərazi bütövlüyünü tanıması simvolikdir. Lakin Ermənistanın məhz Brüsseldə bunu qəbul etməsi vacibdir. Çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bu dəfə Avropa Birliyi platformasında etiraf etdi. Ermənistan bundan sonra Azərbaycana ərazi iddiası ilə çıxış etsə və ya sərhəddə gərginlik yaratsa Qərb rəsmi Bakını atacağı addımlara görə asanlıqla tənqid edə bilməyəcək. Çünki Ermənistan Brüsseldə üzərinə götürdüyü öhdəlikləri pozmuş olacaq. Prinsip etibarilə tərəflərin Alma-Ata Bəyannaməsinə əsaslanması həm də sərhədlərin delimitasiyasını tezləşdirə bilər. Hər halda sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.

## PREZİDENT İLHAM ƏLİYEV VƏ ŞARL MİŞEL TƏRƏFİNDƏN ƏSASI QOYULAN BRÜSSEL SÜLH GÜNDƏLİYİ

Yeri gəlmişkən, xatırladaq ki, Cənubi Qafqazda postmüharibə dövründə Azərbaycanın sülh və sabitliyə sadiqliyi, xüsusilə, dünyada ən böyük siyasi və iqtisadi mərkəzlərdən biri olan Avropa İttifaqı tərəfindən yüksək səviyyədə dəstəkləndi. Aİ Şurasının Prezidenti Şarl Mişellə Azərbaycan Prezidenti İlham Əliyev arasında intensiv dialoq və təmaslarla Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması və predmetli danışıqlara başlanmasında, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması kimi məsələlərin həlli istiqamətində əməli addımlar atılmasında özünü qabarıq büruzə verdi. Nəticədə, postmüharibə dövründə yeni format - Brüssel sülh gündəliyi yarandı. İlk üçtərəfli görüş 2021-ci il dekabrın 14-də keçirildi, bununla da Prezident İlham Əliyev və Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyuldu və tərəflər arasında intensiv təmaslar aparıldı, telefon danışıqları gerçəkləşdirildi.

Bir sözlə, Azərbaycanın daxili işi olan Qarabağ mövzusunun müzakirə edilmədiyi qənaəti təsdiqlənib. Bununla belə sülh müqaviləsinin Bakının irəli sürdüyü və İrəvanın qəbul etdiyi məlum beş prinsip əsasında qurulacağı nəzərdə tutulub. Bütün bunlar isə Ermənistanı sülhə məcbur edən "Dəmir yumruğ"un gücüdür.

## NÖVBƏTİ ALTINCI ÜÇTƏRƏFLİ GÖRÜŞLƏRDƏ YENƏ DƏ AZƏRBAYCANIN ŞƏRTLƏRİ KEÇƏRLİ OLDU

Bu gün Azərbaycan 44 günlük müharibədə düşmən üzərində hərbi qələbə çaldıqdan dərhal sonra bölgədə sülhün bərqərar olması üçün diplomatik müstəvidə də ardıcıl və uğurlu addımlar atmağa başlayıb. Prezident İlham Əliyev əvvəlki görüşlərdə də bildirib ki, bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm: "Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib".

Bəli, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar bəyanatları ilə qazandığımız diplomatik qələbələr ötən ilin 26 noyabrında Soçi bəyanatı ilə daha da möhkəmlənib. Belə ki, Avropa İttifaqının vasitəçiliyi ilə "Brüssel prosesi" sayəsində isə üçtərəfli bəyanatlarda nəzərdə tutulan məsələlərin real müstəvidə həlli ilə bağlı əhəmiyyətli irəliləyişlərə nail olunub. Xüsusilə, üçüncü Brüssel görüşündə Azərbaycanın irəli sürdüyü 5 prinsip Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən qəbul edildi. Yəni bu, o deməkdir ki, iki ölkə arasında imzalanacaq sülh müqaviləsi rəsmi Bakının irəli sürdüyü məlum baza prinsipi əsasında qurulacaq. Lakin Ermənistan hələ də bundan yayınsa da, bundan sonrakı Brüsseldə keçirilən dördüncü, beşinci və növbəti altıncı üçtərəfli görüşlərdə də yenə də Azərbaycanın şərtləri keçərli oldu və sülh prosesi ilə bağlı real addımlar atmağın mütləqliyini ortaya qoydu. Artıq iki ilə yaxın müddətdə hər cür hiylə, təxribatçı əməllərlə sülhə nail olmağı yubadan Ermənistanın bundan yayınmaq yolları bağlandı və o, sülh razılaşmasına məcbur edildi.

Bəli, növbəti altıncı Brüssel görüşü bir daha sübut etdi ki, şərtləri qalib lider diktə edir və məğlub olan ölkənin rəhbəri də bu şərtlərə əməl etməlidir. İstər Soçi, istərsə də Brüssel görüşlərində bir daha sübut olundu ki, Azərbacan Prezidenti qalib lider olaraq Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə də həqiqətləri açıqlayacaq və açıqladı da! Prezident müharibədən ötən bir il ərzində Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda gördüyü böyük işləri göstərərək dünyaya bəyan etdi ki, Azərbaycan, hər zaman olduğu kimi, sülh tərəfdarıdır. Öhdəliklərin yerinə yetirilməsi də bölgədə təhlükəsizliyin təminatına xidmət edəcək. Ancaq görünən odur ki, Ermənistan yenə də hansısa bəhanələr uydurmaqla vaxt uzadır. Yəni, Azərbaycan bu istiqamətdə nəticəyönümlü addımlar atır. Amma Ermənistan da xoş məram sərgiləməlidir və Zəngəzur dəhlizi ətrafında manipulyasiyadan əl çəkməlidir. Çünki 10 noyabr 2020-ci il imzalanan üçtərəfli bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi, maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir.

Və görüşdə də Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə də, dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit olunması, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət daşıdığı vurğulanıb.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlamasında bildirib ki, Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır: "Kommunikasiya. Bu məsələyə gəldikdə, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olublar. Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik".

## ÖHDƏLİKLƏRİNƏ SADİQ ÖLKƏ - ALTINCI BRÜSSEL GÖRÜŞDƏ DƏ AZƏRBAYCAN HƏRTƏRƏFLİ ÜSTÜNLÜYÜNÜ TƏMİN ETDİ

Əvvəlki beş Brüssel görüşündə olduğu kimi, altıncı Brüssel görüşündə də Azərbaycan bir daha göstərdi ki, 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsinə və Brüssel görüşlərində aparılan danışıqlar zamanı qəbul edilən qərarlara sadiqdir. Buna misal kimi sərhədlərin delimitasiyası komissiyasının dərhal yaradılmasını, eləcə də yeni Laçın yolunun 3 ilə deyil, daha tez hazır olmasını, Zəngəzur dəhlizinin açılması istiqamətində dəmir və avtomobil yolunun tikintisinin sürətləndirilməsini göstərmək yetərlidir. Əlbəttə ki, bütün bunlar regionda uzunmüddətli sülhün bərqərar olması istiqamətində mühüm addımlardır.

Bir sözlə, həm Soçi, həm də Brüssel görüşləri bir daha təsdiq etdi ki, qalib ölkənin qalib lideri Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü 5 prinsipdən hər hansısa birini Ermənistan həyata keçirməkdən boyun qaçırarsa, sülh müqaviləsi imzalanmayacaq. İstənilən etirazı, təxribatı isə "Dəmir yumruq" əzəcək.

**RƏFİQƏ KAMALQIZI**

# Tərəqqi yolunun başlanğıcı

14 iyul 1969-cu il tarixi Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə ilk dəfə gəlişi kimi şanlı tariximizə qızıl hərflərlə yazılmışdır. Azərbaycan xalqının tarixində intibah dövrünün başlanğıcı olan bu gündən başlayaraq, respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir.

1969-cu il 14 iyul tarixinin Azərbaycanın yeni tarixində müstəsna yeri var. Həmin tarixdən başlayaraq respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə gələcək müstəqil dövlətin iqtisadi qüdrətinin təməli qoyulub, respublika inkişaf tempinə görə keçmiş ittifaq miqyasında öncül sıralara çıxıb. Bu baxımdan Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə daim xatırlanır. Bu tarix Azərbaycanın xilasının birinci mərhələsi, xalqın özünə qayıdış tarixidir. Dünya şöhrətli siyasi xadim öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Ulu Öndər siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur.



## AZƏRBAYCANIN GƏLƏCƏK İNKİŞAFININ STRATEJİ İSTİQAMƏTLƏRİ MÜƏYYƏNLƏŞDİRİLDİ

Ötən əsrin 60-cı illərində Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Ulu Öndər Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşandı. Belə ki, 1969-cu ilin 14 iyulunda Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi seçildi. Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul olunur. Ulu Öndər Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi təyin olunduğu il tarixində yeni dövrün, Azərbaycanın sosial - iqtisadi həyatında inkişafın bünövrəsi qoyuldu. 1969-cu il avqustun 5-də Azərbaycan KP MK-nın plenumunda etdiyi tarixi çıxış imperiya rəhbərliyini təşviş salmışdı. Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il plenumunda Azərbaycanın gələcək inkişafının strateji istiqamətləri müəyyənləşdirildi. Bütünlüklə sovet cəmiyyətini bürüyən rüşvətxorluq, korrupsiya hallarının etiraf olunması, ittifaq ölkəsində böyük hadisəyə çevrildi. Ölkədəki acınacaqlı vəziyyət, əhalinin məmurlar tərəfindən əsassız olaraq incidilmə hallarının, rüşvət və korrupsiyanın qarşısının alınması üçün mühüm tədbirlər hazırlandı. O dövrlərdə bütün yaşayış məntəqəsində - şəhərlərdə, qəsəbə və kəndlərdə əhalinin mənzil-məişət şəraiti kökündən yaxşılaşdırıldı. Hazırlanan strateji proqrama əsasən, 1970-ci illərdə bütün Azərbaycan əzəmətli tikinti meydanına çevrildi. Ümumiyyətlə, ölkənin hər yerində infrastruktur yaradıldı, yeni xidmət sahələri açıldı. Ümummilli Lider hələ o illərdə Azərbaycanın gələcəyini hesablayır, bugününü qururdu. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanın hər bir yerində nəhəng layihələr, yenidənqurma işləri həyata keçirilirdi.

Azərbaycanda bu müddətdə yüngül sənaye inkişaf etdi. O dövrlərdə bütün yaşayış məntəqəsində - şəhərlərdə, qəsəbə və kəndlərdə əhalinin mənzil-məişət şəraiti kökündən yaxşılaşdırıldı. Hazırlanan strateji proqrama əsasən, 1970-ci illərdə bütün Azərbaycan əzəmətli tikinti meydanına çevrildi. Bütün yaşayış məntəqələrinə elektrik enerjisi verildi, qaz kəməri, telefon çəkildi. Ümumiyyətlə ölkənin hər yerində infrastruktur yaradıldı, yeni xidmət sahələri açıldı.

## TƏHSİLDƏ ƏSASLI KEYFİYYƏT DƏYİŞİKLİYİ

1969-cu ildə hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyev bütün sahələrdə yüksək ixtisaslı kadrların yetişdirilib hazırlanması məsələsinə böyük diqqət və qayğı göstərdi. Bu kadrların böyük əksəriyyətini respublikanın özündə hazırlamaq məqsədilə o, ali və orta ixtisas müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirdi. Onların yeni binalar və avadanlıqlarla təchiz olunmasını təmin etdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi, səyi nəticəsində Cəmşid Naxçıvanski adına Hərbi məktəbin açılması Azərbaycanın həyatında çox mühüm bir hadisə oldu. Hər bir ölkə üçün ordu quruculuğu prosesində milli hərbi kadrların hazırlanması mühüm əhəmiyyətə malik sahə kimi daim prioritet təşkil edir. Müstəqil Azərbaycan Respublikasında bu sahəyə xüsusi diqqət yetirilir, Vətənə, dövlətə, dövlətçiliyə sədaqətli, yüksək mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ordu quruculuğu strategiyasında ixtisaslı hərbi kadrların hazırlanması xüsusi yer tutur. Hələ Sovetlər İttifaqı dövründə Ulu Öndərin rəhbərliyi müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb. Ulu Öndər ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görülmüş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri formalaşmışdır. Ümummilli Lider Heydər Əliyev belə deyirdi: "Hərbi peşə insandan həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik tələb edir".

Hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə beş yeni ali təhsil müəssisəsi açıldı və ali məktəb tələbələrinin sayı 70 mindən 100 minədək artdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəbdə 105 fakültə, 450 kafedra var idisə və 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

## YÜKSƏK TƏLƏBLƏRƏ CAVAB VERƏN NORMATİV-HÜQUQİ BAZA YARADILDI

Xalqımızın Ümummilli Lideri, Dahi Şəxsiyyət Heydər Əliyevin uzaqgörənliyi, fədakarlığı, müdrikliyi Onu bütün dünya azərbaycanlılarının Liderinə çevirib. Bütün ömrünü canından artıq sevdiyi xalqına, ölkəsinə həsr edən Ulu Öndər Heydər Əliyev tariximizdə müstəqilliyimizin Memarı və Qurucusu olaraq adını əbədiləşdirib. Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti dövlətin gələcək həyatının inkişafına hesablanmışdır. Belə ki, Ulu Öndər Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədənimənəvi tərəqqisinə nail olmuşdur. O, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində titanik fəaliyyət göstərərək fundamental uğurlara imza atıb. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin dirçəlməsində, onun mövqeyinin, təməlinin möhkəmlənməsində rolu əvəzsiz olmuşdur. Məhz 15 İyun 1993-cü il xalqımızın tarixinə böyük əhəmiyyət daşıyan günlərdən biri - Milli Qurtuluş Günü kimi daxil olmuşdur. 1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdaraq xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi qeyd olunur və həmin tarixdən ölkəmizin yeni bir dövrü başlanıb. O dövrə nəzər salarkən baş verən hadisələrin xalqı, bütövlükdə, uçuruma sürüklədiyinin şahidi oluruq. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu.

Ulu Öndərin məqsədyönlü siyasəti ilə Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Dahi Şəxsiyyət xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycanı bəxş etdi. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Heydər Əliyev Şəxsiyyətinin bəhrəsidir. 1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsində böyük əhəmiyyət kəsb etdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu Sənəd, müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

Bu gün Azərbaycanın bütün sahələrində Ulu Öndər Heydər Əliyevin böyüklüyü görünür. Onun Şəxsiyyəti, məhz əməllərini yaşadan Azərbaycanın, bütövlükdə panoramasında özünü göstərir. Müasir həyatımızda Azərbaycana marağın artması Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində mümkün olub. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın böyük nailiyyətlər əldə etməsinə səbəb olub. Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır, Azərbaycan regionun lider dövlətinə çevrilib, diplomatiya sahəsində uğurlar əldə edilib. Prezident İlham Əliyevin imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 il ərzində xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunmaqdadır.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu Ulu Öndər Heydər Əliyev ideyalarına söykənir və əldə edilən dinamik inkişaf, sarsılmaz ictimai-siyasi sabitlik göstərir ki, müasir müstəqil Azərbaycanın seçdiyi strateji yol milli maraqlara və xalqın ali iradəsinə əsaslanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Münasibətlərimiz ”Bir millət, iki dövlət” prinsipi əsasında inkişaf edir!

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin nümayəndə heyətini qəbul edib



**Prezident İlham Əliyev iyulun 17-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Fuat Oktay qəbula görə təşəkkürünü bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında əlaqələrin çox böyük məmnunluq doğurduğunu vurğulayan Fuat Oktay münasibətlərimizin ”Bir millət, iki dövlət” prinsipi əsasında inkişaf etdiyini dedi. O, Şuşa Bəyannaməsi ilə rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə münasibətlərinin həmin sənəddən irəli gələn məqsəd və məramlar əsasında daha da inkişaf etdirilməsinin önəmini vurğuladı. Ölkəsində baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycanın Türkiyənin yanında olmasının önəmini qeyd edən TBMM-in komitə sədri bu dəstəyə görə təşəkkürünü ifadə etdi.

İqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluğunu bildirən Fuat Oktay ölkələrimizin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığının genişlənməsi istiqamətində səyləri yüksək qiymətləndirdi.

O, eyni zamanda, Ermənistanda Nemesis terrorçularına abidənin qoyulması ilə əlaqədar Türkiyənin də ciddi narahatlığını bir daha diqqətə çatdırdı. Fuat Oktay, həmçinin ölkələrimiz arasında enerji, təhsil, hərbi, hərbi-texniki, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərini qeyd etdi.

Türkiyədəki seçkilərdən sonra Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfərinin önəmini yüksək qiymətləndirən Prezident Ilham Əliyev bu səfər əsnasında da ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlığın inkişafına toxunan dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıda olarkən Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirakının ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişafının növbəti nümunəsi olduğunu bildirdi. Şuşa Bəyannaməsi ilə müttəfiqlik prinsipi əsasında ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, həmçinin bu əməkdaşlığın parlament səviyyəsində daha da inkişaf etdirilməsinin, parlamentlərin xarici əlaqələr komitələrinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini vurğuladı. Dövlətimizin başçısı, öz növbəsində, Ermənistandakı Nemesis abidəsinin qoyulmasının qəbuledilməz hal olduğunu bir daha qeyd etdi.



Görüşdə, həmçinin Orta Dəhliz, enerji sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı, son dövrlərdə Türkiyə ilə Azərbaycan arasında Preferensial Ticarət Sazişindən irəli gələrək iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və ticarət dövriyyəsinin 6 milyard dollara çatması müsbət məqamlar kimi qeyd olundu. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Əhəd Mikayıl oğlu Abıyevin Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında Sərəncam imzalayıb. SİA xəbər verir ki, Sərəncamda deyilir ki, Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərir.



## İqtisadi Şuranın növbəti iclası keçirilib

Azərbaycan Respublikasının İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə iyulun 17-də Şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda cari ilin birinci yarısında iqtisadi artım, makroiqtisadi sabitlik və maliyyə sabitliyi üzrə cari vəziyyət və siyasət prioritetləri, o cümlədən inflyasiya proseslərinin və onun faktorlarının təhlili, antiinflyasiya tədbirləri, valyuta bazarı, pul siyasətinin yeni əməliyyat çərçivəsi, bank və sığorta sektorunun mövcud vəziyyəti və inkişafı, habelə dövlət borcunun idarə edilməsi üzrə ortamüddətli çərçivə, Borclanma Strategiyası üzrə yeni hədəflər və dəyişikliklər, kapital bazarlarında investorların kompensasiyası mexanizminin yaradılmasına dair təkliflər və digər cari məsələlər geniş müzakirə olunub.

İclasda maliyyə naziri Samir Şərifovun və Mərkəzi Bankın sədri Taleh Kazımovun məruzələri dinlənilib. Yekunda müzakirə olunan məsələlər barədə Şura üzvlərinin təklifləri də nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## İsrailli politoloq: ”Azərbaycan yalnız İsrailin deyil, həm də Qərbin böyük dostudur”

Azərbaycan yalnız İsrailin deyil, həm də Qərbin böyük dostudur. Bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Karanın ölkəsinin geniş oxuyucu kütləsinə malik ”İsrael Hayom” nəşrində dərc olunmuş məqaləsində yazıb.

”Nə üçün İsrail İran təhlükəsi qarşısında Azərbaycana kömək etməlidir?” sərlövhəli məqalədə qeyd olunub ki, İsrail kimi Azərbaycan da ona qarşı birmənalı sayılmayan yanaşmalar səbəbindən İran təhlükəsi qarşısında Qərb paytaxtlarında çox ehtiyac duyulan dəstəyi əldə etmək üçün çətin mübarizə aparır. İrandan qaynaqlanan ekzistensial təhlükə ilə üzləşən İsrailə qarşı fələstinlilərin yürütdüyü boykot və sanksiya hərəkatı Qərbdə İsrailə qarşı sanksiyaların tətbiq edilməsini hədəflədiyi kimi, erməni lobbisi də Kapitoli təpəsində analoji təhdid altında olan Azərbaycan əleyhinə fəaliyyət aparır və bu vəziyyət Tehrandakı mollaların həm Azərbaycana, həm də İsrailə qarşı düşmənçiliyini körükləyir. Sabiq nazir bu mənada ölkəsinin dost Azərbaycanı bütün vasitələrlə müdafiə etməsini alternativsiz seçim adlandırıb.



Diqqətə çatdırılıb ki, Azərbaycan təkcə İsrailin deyil, həm də Qərbin etibarlı dostudur. NATO-nun baş katibi Yens Stoltenberq Azərbaycanı ”dəyərli tərəfdaş” adlandırıb və bu, ölkəmizin Əfqanıstandakı NATO missiyasına verdiyi töhfə ilə bağlı olub. Belə ki, Azərbaycan Türkiyə ilə birlikdə Kabildə həyata keçirilən təxliyə prosesləri zamanı Həmid Kərzai adına hava limanının təhlükəsizliyini təmin edib və nəticədə talibanlar tərəfindən ələ keçirilmiş ölkədən QHT və hökumət işçilərinin təhlükəsiz təxliyəsinə imkan yaradıb. Məqalədə Ceymstaun İnstitutuna istinadən bildirilib ki, Azərbaycanın NATO səylərinə töhfəsi 2002-ci ildə 22 sülhməramlı ilə başlayıb və missiyalarını bitirəndə onların sayı 120-yə çatıb. Azərbaycan sülhməramlıları NATO missiyasına quruda dəstək verməklə yanaşı, zəruri hərbi təchizatın təxminən 40 faizini tranzit marşrutları ilə təmin etməklə Əfqanıstandakı müttəfiq qüvvələrin maddi-texniki təminatını asanlaşdırıb.

Eyni zamanda, qeyd olunub ki, Stoltenberq Ukraynadakı müharibədən sonra kəskin qaz və neft çatışmazlığı ilə üzləşmiş bir sıra NATO üzv ölkələrinə Azərbaycanın qaz tədarükünü də yüksək qiymətləndirib. İsrailli politoloqun fikrincə, Azərbaycan Rusiyanın Avropaya qaz tədarükünü tam əvəzləməsə də, Avropanın Rusiya qazı və neftindən asılılığını azaltmaqda mühüm rol oynayır. Sonda sabiq nazir belə qənaətə gəlib ki, Qərb İsrailin İranla bağlı narahatlığını nəzərə almalı olduğu kimi, Azərbaycanın da eyni qəbildən olan narahatlığını nəzərə almalıdır. Çünki İsrail və Azərbaycanın İran təhlükəsi ilə bağlı narahatlığı Ukraynanın Rusiya ilə əlaqədar narahatlığından heç də az əhəmiyyət kəsb etmir. Buna görə də Qərb İranın nüvə təhlükəsinə necə cavab verəcəyini düşünərkən İsrail və Azərbaycan da mollalarla danışıqlar masası arxasında söz sahibi olmalıdır. Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür: https://www.israelhayom.com/2023/07/09/why-israel-should-help-azerbaijan-in-the-face-of-the-iranian-threat/.

# Türkiyənin yeni Zəfər tarixi!

## PREZİDENT İLHAM ƏLİYEV: "Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur"

**15 iyul 2016-cı ildə qardaş Türkiyədə FETO-çu terror təşkilatının dövlət çevrilişinə cəhdinin qarşısının alınmasından artıq 7 il ötdü. Yeddi il əvvəl qardaş Türkiyə xalqı Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edərək, dövlətçiliyə və demokratiyaya sahib çıxaraq əsl şücaət və qəhrəmanlıq nümunəsi göstərmiş, dünyaya bir daha qüdrətini və əzəmətini sübut etmişdi.**

Prezident İlham Əliyvin Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin altıncı ildönümü ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana göndərdiyi məktubda deyilir: "Bu il Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin altıncı ildönümü qeyd olunur. Biz dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik. Altı il əvvəl qardaş Türkiyə xalqı Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edərək, dövlətçiliyə və demokratiyaya sahib çıxaraq əsl şücaət və qəhrəmanlıq nümunəsi göstərmiş, dünyaya bir daha qüdrətini və əzəmətini sübut etmişdi. 15 İyul hadisələri ilə əlaqədar təsis edilmiş "Demokratiya və Milli Birlik Günü" qəhrəman xalqınızın Vətəninə və dövlətinə bağlılığının, dövlətçiliyə və demokratik ənənələrinə sadiqliyinin təcəssümüdür.

Qeyd olunur ki, Azərbaycan xalqı dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda edən şəhidlərin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir. Məktubda, daha sonra deyilir: "Qardaş xalqınızın əsl lideri kimi Sizin şəxsinizə olan sonsuz inam və etimadı, Sizin ətrafınızda sıx birləşməsi Türkiyə dövlətinə qarşı yönəlmiş xəyanətin qarşısını almaqda, ölkənizin bu çətin sınaqdan başıuca çıxmasında həlledici rol oynadı. Milli birliyin və həmrəyliyin, sarsılmaz iradənin və güclü liderliyin təntənəsi olan bu möhtəşəm zəfər Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunmuşdur.

Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən qardaş Türkiyənin yanında olaraq və həmrəylik göstərərək bu xəyanətkar dövlət çevrilişi cəhdini ən qəti şəkildə qınamışdır. "Bir millət iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını sübut edirlər. Biz bundan sonra da bütün məsələlərdə Türkiyənin yanında olacağıq. Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əminəm ki, bir ay əvvəl imzalanmasının birinci ildönümünü qeyd etdiyimiz Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz müttəfiqlik hədəflərinə doğru bundan sonra da inamla addımlamağa davam edəcəyik. Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

Bəli, bu gün "Bir millət, iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını sübut edirlər. Çünki bu gün qırılmaz tellərlə bir-birinə bağlı olan və






### SINAQLARDAN ÇIXMIŞ, DOSTLUQ VƏ QARDAŞLIQ ÜZƏRİNDƏ QURULMUŞ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN BU GÜN DÜNYADA BƏNZƏRİ YOXDUR

Tarixin sınaqlarından şərəflə çıxan Azərbaycan-Türkiyə qardaşlığı dünyaya nümunədir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, biz bütün məsələlərdə bir yerdəyik. Bu gün də bir yerdəyik! Çətin dar gündə, xoş gündə "Bir millət, iki dövlət" olaraq sınaqlardan çıxmış qardaşlıq və həmrəyliyimiz hər an göstəririk. Elə fevralın 6-da son 100 ilin fəlakəti ilə üz-üzə dayanan qardaş Türkiyədə baş verən dəhşətli zəlzələ nəticəsində çoxlu sayda insan tələfatının olması ölkəmizdə də böyük hüznlə qarşılandı. Qardaş ölkədən gələn acı xəbər Azərbaycan xalqını və dövlətini dərin kədərə boğdu. Elə həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını bildirdi. Həmçinin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da sosial mediada paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdi. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", - deyə qardaş Türkiyəyə dəstəyini ifadə etdi.

### BƏLİ, YENƏ DƏ TƏBİİ OLARAQ, TÜRKİYƏ DAR GÜNÜNDƏ YANINDA YENƏ DƏ İLK OLARAQ QARDAŞINI GÖRDÜ

Qırx dörd günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada Şuşa Bəyannaməsinin imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi.Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Və dünya tarixində bəlkə də ilk dəfə bir xalq bütün dini, siyasi mənsubiyyətindən asılı olmayaraq çevrilişə cəhdi birlikdə dəf etdi.

### RƏCƏB TAYYİB ƏRDOĞAN: "2023-cü il Türkiyə üçün yeni zəfər ili olacaq"

Bəli, ötən 7 il ərzində Türkiyədə Prezident Rəcəb Tayyip Ərdoğanın gördüyü tədbirlər artıq öz bəhrəsini verir. Bu gün Türkiyədə sözün həqiqi mənasında dövlətçilik möhkəmlənir, daxildə milli barış, milli həmrəylik getdikcə güclənir və bu milli barış, milli həmrəylik üzərində qurulmuş Türkiyə hökuməti həm Türkiyənin özündə, həm bizim bölgəmizdə, həm də dünyada ciddi güc faktoruna çevrilir. Və bu il Türkiyədə keçirilən prezident seçkilərində türk xalqı ilə yanaşı Azərbaycan xalqı da birlik nümayiş etdirdi. Türk xalqı öz Prezidentinin ətrafında sıx birləşərək bu qüvvələrin öz niyyətlərinə çatmasına imkan vermədi. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanını dediyi kimi, 2023-cü il Türkiyə üçün yeni zəfər ili oldu.

Və bu gün Türkiyə xalqı ilə Azərbaycan xalqı 15 iyul Türkiyənin yeni Zəfər tarixi ni qeyd edir. Bu Azərbaycan-Türkiy xalqlarının birliyi, həmrəyliyi və qardaşlığının daimi, əbədi olduğunun, dünyada bənzəri olmayan qardaşlığının digər türk-müsəlman xalqları üçün bir nümunədir.

***RƏFİQƏ HÜSEYNOVA***

# Mətbuatımızın fədaisi

*"Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır!"*



***Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər, tanınmış publisist, pedaqoq və təbiətşünas alim Həsən bəy Zərdabi demokratik ideyalarla zəngin olan bir ziyalı olaraq tariximizdə iz salıb. Zəhmətkeş kütlələrin xoşbəxtlik və tərəqqisini elmdə görmüş, elmin, təhsilin həyatla əlaqəsinə böyük əhəmiyyət vermiş Həsən bəy Zərdabi geniş ictimai fəaliyyəti ilə mətbuat tariximizdə silinməz iz salıb. Asudə vaxtlarını xalq arasında keçirmiş, uşaqları və yeniyetmələri elmə, mədəniyyətə, maarifə həvəsləndirmiş böyük ziyalı bütün həyatını xalqının maariflənməsinə həsr edərək böyük bir yola çıxmışdı.***

O, Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır və bunu qəzetin nəşrində görürdü. "Bizim Cəmiyyəti Xeyriyyə bina tutmadığından teatr təşkil etdiyimiz salonun boş qaldığı zaman anladım ki, müsəlman qardaşlarımızı bir yerə toplayıb məktəblər açdıraraq küçədəki uşaqları oxutmaq mümkün deyildir. Elmsiz bu dövrdə yaşamaq mümkün deyildir. Nə etməli? Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar. Sonunda başa düşdüm ki, səs-küy salaraq, məcburi başa salmaqdan başqa çarəm yoxdur. Mütləq bu izah etdiklərimi bir gün başa düşən olacaqdır. Axan bir suyun altına nə qədər sərt daş qoyursan qoy, zamanla o daş əriyib yox olacaqdır. Əgər elədirsə, doğru söz də bir gün başa düşüləcəkdir. Onun üçün mütləq qəzet nəşr etdirmək gərəkdir. Hər il qəzet oxuyanlardan 10 nəfər anlasa, onların sayı hər il artacaqdır. Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır !". Beləliklə, o bu məqsədinə çatmaq üçün israrlı olaraq mücadilə edir. Təbii ki, Həsən bəy Zərdabinin gördüyü işlərin hamısı millətin tərəqqisi naminə idi. Hər addımında vətənpərvərlik özünün biruzə verirdi. Əlbəttə ki, mətbuatın olması o dövr üçün zəruri idi. O ana dilində qəzet nəşr etmək fikrinə hələ Qubada, mahal məhkəməsinin katibi işlədiyi dövrdə gəlmişdi. Böyük Azərbaycan maarifçisi Abbasqulu bəy Bakıxanovun qardaşı tələb olunan maliyyə xərclərini öz üzərinə götürürdü.

Bəs, Həsən bəy Zərdabi kim idi? Həsən bəy Səlimoglu (Zərdabi) 1837-ci ildə (bəzi mənbələrdə 1842-ci il) keçmiş Bakı quberniyasına daxil olan Göyçay qəzasının Zərdab kəndində bəy ailəsində anadan olmuşdur. Həsən bəy Zərdabi ilk təhsilini Zərdab kəndindəki mədrəsədə almışdır. Burada ərəbcə və farsca öyrənən Zərdabi 1852-ci ildə Şamaxı şəhərində açılan rusca dünyəvi təhsil verən məktəbə yazılmışdır. Məktəbi bitirmək üçün imtahan verəndə Qafqaz Təhsil Komissiyası Müdiri baron Nikolayın diqqətini çəkmiş və baron onu dövlət təqaüdü ilə Tiflisə oxumağa göndərməyi təklif etmişdir. Mənbələrdə qeyd olunur ki, bu ərəfələrdə atası vəfat edən Zərdabiyə böyük qardaşları Tiflisə getməyə icazə verməmişdilər. Tiflisdə yaşayan atasının dayısı general Fərəc bəy Ağayev bu hadisədən sonra hadisəyə müdaxilə edərək, Zərdabini Tiflisə gətizdirmişdir. Tiflisdəki məktəb üçün girdiyi imtahanları uğurla bitirən Zərdabi 1858-ci ildə I Tiflis məktəbinin V sinfinə qəbul olmuşdur. 1861-ci ildə həmin məktəbi uğurla bitirən Zərdabi elə eyni ildə dövlət təqaüdü ilə Moskva Universiteti Fizika-Riyaziyyat fakültəsində Təbiət elmləri üzrə təhsil almağa göndərilmişdir. 1865-ci ildə bu universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Ali təhsil ocağında oxuduğu müddətdə tələbələr arasında xüsusi olaraq seçildiyinə görə fakültəni əla qiymətlərlə başa vurduqdan sonra elmi iş üçün universitetdə saxlanılması qərarı qəbul edilmişdir, lakin vətəninə olan sonsuz məhəbbəti, xalqına, millətinə xidmət etmək arzusu onu Azərbaycana çəkib gətirmişdir.

## HƏYATINDA YENİ DÖVR

Zərdabi universiteti bitirdikdən sonra Tiflisdə Torpaq İdarəsində işləməyə başlayır. Bu vəzifədən ayrıldıqdan sonra 1868-ci ildə Qubada məhkəmə katibi olaraq işləməyə başlayır. 4 oktyabr 1868-ci il tarixində işinə son verildikdən sonra bir müddət müstəqil məhkəmə vəkilliyi etmişdir. 18 noyabr 1869-cu ildə Bakıda məktəbə təbiət elmləri üzrə müəllim kimi işə düzəlmişdir. Bununla da onun həyatında yeni dövr - maarifçilik, xalqın savadlanması, ana dilində təhsil uğrunda mübarizə mərhələsi başlayır, lakin problemin çətinliyi onda idi ki, Həsən bəy Qafqazda o zaman fəaliyyət göstərən 10 gimnaziyada çalışan müəllimlər içərisində ali təhsilli yeganə azərbaycanlı idi. Azərbaycanlı şagirdlər də yox dərəcəsində idi. Bununla da, Həsən bəy azərbaycanlı uşaqları məktəbə cəlb etmək üçün xalq içərisində təbliğat aparmağı qarşısına məqsəd qoyur. Bundan sonra, müsəlmanlar arasında ilk dəfə 1872-ci ildə Bakıda "Cəmiyyət-xeyriyyə" də yaratmışdı. Həmin ilin bütün yayını Həsən bəy Zərdabi gimnaziyada təhsil alan şagirdləri Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlov ilə birlikdə Azərbaycanın şəhər və kəndlərini dolanaraq rəsmi dəftərə "Cəmiyyət-xeyriyyə"yə üzv yazdırmaqla məşğul olmuşdu. Yoxsul və kimsəsiz uşaqların tərbiyəsi və məktəbə hazırlığı ilə məşğul olmaq üçün savadlı türk (azərbaycanlı) qadın müəllimlərə ehtiyac yarandığından, Həsən bəy Zərdabi 1872-ci ildən "Qafqaz" qəzetində Tiflis "Müqəddəs Nina" Qadın gimnaziyasını bitirən qızların müəllim kimi peşəsini davam etdirməklərini təbliğ edir. Bundan sonra, Zərdabi bir gün "Qafqaz" qəzetindəki xəbərdən Tiflisdə olan Müqəddəs Nina adlı qız məktəbindən məzun olanların arasında Nalçik şəhərində anadan olan və Balkar türklərindən olan Hənifə xanım Abayevanın da olduğunu öyrənir. Bundan sonra Tiflisə gedən Zərdabi Hənifə xanımı taparaq onunla tanış olur və ona gələcəklə bağlı fikirlərini deyir. Hənifə xanımın da eyni fikirdə olduğunu öyrənən Zərdabi ona evlənmə təklifi edir. Təklifi qəbul edən Hənifə xanım Zərdabi ilə birlikdə yaşamaq üçün Bakı şəhərinə köçür.

## XALQA MAARİFÇİLİYİ AŞILAMAQ MİSSİYASI

Məlumat üçün bildirək ki, XIX əsrin ikinci yarısında dünyanın bir sıra ölkələri üçün dövri mətbuat anlayışı çoxdan mövcud olsa da, Azərbaycanda bu sahədə hələ bir yenilik yox idi. Baş verən dövrün ictimai-siyasi hadisələri milli mətbuatımızın yaranmasını zəruri edirdi. Azərbaycanda milli burjuaziyasının və dövrün görkəmli şəxsiyyətlərinin səyi ilə XIX əsrin ikinci yarısında maarif inkişaf etməyə başladı. O dövrün yazılı mənbələrinə istinadən deyə bilərik ki, təhsil sahəsində bəzi dəyişikliklər həyata keçirildi. Məktəblərdə ana dilinin tədrisinin həyata keçirilməsində M.F.Axundovun, Səid Ünsizadənin, S.Ə.Şirvaninin xidmətləri danılmazdır. S.Ünsizadənin Şamaxıda açdığı məktəbdə şəriətlə yanaşı, fəlsəfə, məntiq, psixologiya, islam dininin tarixi, həmçinin rus və ana dili tədris olunurdu. Maarifçiliyin geniş intişar tapmasında bu şəxsiyyətlərlə yanaşı, görkəmli maarif xadimləri Məhəmməd Tağı Sidqi, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, S.M.Qənizadənin xidmətləri böyükdür. Azərbaycan maarifçilər nəslinin nümayəndələri olan bu şəxsiyyətlər xalqın savadlanması, dövrün mütərəqqi ideyaları ilə tanış olmaları üçün mətbu orqanın imkanlarını yaxşı anlayırdılar. Məhz buna görə də onlar anadilli mətbu orqan yaratmaq üçün fəaliyyətə keçdilər. Əlbəttə ki, çar Rusiyasında 1865-ci ildə qəbul olunmuş "Senzura haqqında qəti qanun"dan sonra mətbuatda nəşrin qeydə alınması və çapı olduqca çətin iş idi. Həsən bəy Zərdabi qəzet çıxarmaq fikrinə 1868-ci ildə düşmüşdü. Lakin çar idarələrindəki süründürməçilik, hərc-mərclik Zərdabinin qəzet nəşr etmək arzusunu uzun müddət çin olmağa qoymadı. Qəzetin nəşrinə icazə alma 7 il çəkdi. Zərdabinin rəsmi orqanlara ilk müraciəti isə 1873-cü ilin aprel ayında oldu. Qəzetin belə adlandırılması isə çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü. Qəzetin nəşrinə 1875-ci ildə icazə verildi və iyul ayının 22-də "Əkinçi"nin ilk sayı işıq üzü gördü. Bu tarixdən etibarən Azərbaycanda milli dövri mətbuatın əsası qoyuldu.

Cəhalətə və mövhumata ağır zərbə vurmaq, xalqa maarifçilik aşılamaq, ana dilində qəzet oxumaq missiyasını üzərinə götürən Zərdabinin məsləkdaşları qarşılarına olduqca məsuliyyətli vəzifə qoydular. "Əkinçi"nin ilk nömrəsində Zərdabi "Daxiliyyə", "Əkin və ziraət", "Elmi xəbərlər", "Tazə xəbərlər" bölmələrini olacağının yazırdı. Həsən bəy Zərdabi yazırdı:"Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun" və ya "Xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün".

## "QƏZETİNİZİN ƏSAS MƏZİYYƏTLƏRİNDƏN BİRİ İFADƏNİN GÖZƏLLİYİ, İBARƏLƏRİN ZƏRİFLİYİ VƏ AYDINLIĞI, ORFOQRAFİYANIN DÜZGÜNLÜYÜ OLMALIDIR"

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın təməlinin qoyulması Azərbaycan və eləcə də, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyətin yaranmasına səbəb oldu. 1875-ci il iyulun 22-də milli mətbuatımızın bünövrəsi "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Əkinçi Azərbaycan dilində yayımlanan ilk qəzet olaraq ayda iki dəfə 300-400 tirajla yayımlanmışdır. Ümumilikdə 56 sayı buraxılmışdır. Bu böyük zəhmət hesabına baş gəlmişdir. Dövrünün təqiblərinə baxmayaraq, dözüm gətirdi "Əkinçi" qəzeti. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan "Əkinçi" elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, xalqın savadlanmasına kömək məqsədi ilə misilsiz iş görür.

Mənbələrə diqqət yetirsək görərik ki, "Əkinçi"nin 6-cı nömrəsindən sonra qəzetdə məktublar şöbəsi də açıldı. Bu 5 şöbə qəzetin sonuncu nömrəsinə qədər davam etmişdir. "Əkinçi" Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrilir. Həsən bəy Zərdabi qəzet oxuyanların sayını artırmaq məqsədi ilə onları pulsuz olaraq yayırdı.

M.F.Axundov geniş oxucu kütləsi üçün buraxılan mətbuat orqanının şriftlərinin gözəl, dilinin, üslubunun, orfoqrafiyasının tam düzgün olmalıdır, deyə Həsən bəyə yazırdı: "Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki sizin qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır".

"Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir. Bu qəzet cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyub. 1877-ci ildə "Əkinçi" qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən "Bakinski listok" olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet "Bakinskiye izvestiya" nəşrə başlamışdır. 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı çıxırdı. XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. Gərgin elmi fəaliyyətlə məşğul olan Həsən bəy Zərdabi həddindən artıq işləyib özünü yorduğu üçün iflic olmuş və 1907-ci il noyabr ayının 28-də vəfat etmişdir. O, 1907-ci ildə köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunsa da, 1937-ci ildə həmin ərazi dağıdılmış, mərhumun sümükləri bir neçə il evdə ailəsinin yanında qalmışdır. 1957-ci ildə Həsən Bəy Zərdabinin vəfatının 50 illiyi qeyd olunarkən onun sümükləri Fəxri Xiyabanda dəfn olunmuşdur.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Kimin gücü kimə yetir?

**Zorakılığa məruzqalma ilə bağlı ən son rəsmi statistika ötən ilə aiddir. 2022-ci ildə 475 qadın və 20 kişi məişət zorakılığına məruz qalmaları ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət ediblər. Ötən il Komitə uşaqlarla bağlı 81 müraciət alıb. Eyni zamanda, ötən il 6 ahıl şəxs və 2 cinsi azlıq ailələrində onlara qarşı olan zorakılıqla bağlı Komitəyə müraciət edib. Müraciətlərin 409-u psixoloji, 304-ü fiziki, 5-i cinsi zorakılıqla bağlı olub. Müraciət edənlərdən 301-i əri, 146-sı keçmiş əri, 67-si isə digər qohumları tərəfindən zorakılığa məruz qaldıqlarını bildiriblər.**

Ailədə zorakılıq bütün cəmiyyətlərin ortaq problemidir. Bu sahədə aparılan araşdırmalar dünyada hər dörd qadından birinin və hər altı kişidən birinin ailədə zorakılığa məruz qaldıqlarını göstərib. Zorakılıq özünü həm fiziki, həm mənəvi, həm də iqtisadi tərəfdən göstərir. Ailədaxili zorakılığa məruz qalanlar həyat yoldaşı (qadın və ya kişi) da olur, uşaqlar da, ailə böyükləri (nənə və ya baba) də, xüsusi qayğıya ehtiyacı olanlar (fiziki qüsurlu insanlar) da. Yəni, zorakılıq törədən qarşıdakının yaşına, statusuna baxmır.



### Kim daha çox zorakılıq görür?

Nədənsə, ailədə zorakılıqdan söz düşəndə hamının gözünün önünə əri tərəfindən döyülmüş, üz-gözü göyərmiş, paltarları cırılmış qadın surəti gəlir. Bizim cəmiyyətdə kişilərin ailədə zorakılığa məruz qalmasına inanmırlar, daha dəqiq ifadə etsək əksəriyyət bunu mümkünsüz hesab edir. Bizim ölkəmizdə də zaman-zaman mətbuata, hüquq-mühafizə orqanlarına məlum olan zorakılıq hadisələri olur, amma etiraf etmək lazımdır ki, ölkəmizdə hər 100 zorakılıq halından yalnız bir neçəsi aşkara çıxır. Kişilərin zorakılıq gördüyü cəmiyyətlərdə isə çox vaxt fiziki qüsuru olan kişilər və qocalar bundan əziyyət çəkir. Bu o demək deyil ki, onlara fiziki güc tətbiq edilir, yox, sadəcə sözlə də zorakılıq olur, bu iş qabiliyyətini itirmiş və ya yaşlanmış kişilərin ən çox rastlaşdığı durumdur.

Psixoloq Mələhət Həsənova deyir ki, ailədaxili zorakılığın səbəbləri ailə üzvləri arasında anlaşmazlıq, ailə üzvlərinin məsuliyyətsizliyi, fiziki və ruhi problemlər, şəxsiyyət pozğunluqları, maddi problemlər, aldatma-xəyanət etmə, spirt və narkotik asılılıq, depressiya və fərqli namus anlayışlarıdır.

Sosioloqlar isə hesab edir ki, ailədə zorakılığın artmasının səbəblərindən biri də savadsızlıqdır. Düzdür, bizdə savadsız qadınlar azdır, ali məktəb oxumayanların heç olmasa orta təhsili, kifayət qədər biliyi var. Təcrübədən keçmiş faktdır ki, dünyadan bir az xəbəri olan, haqqını-hüququnu bilən qadınlar özlərini əzdirmirlər. Heç olmasa, çətin durumda hara müraciət etmək lazım olduğunu bilirlər. Və ya əksinə, ailədə zorakılıq görən kişilər də var, kimisi valideynindən, kimisi də həyat yoldaşından. Zorakılıq tək fiziki basqı demək deyil, mənəvi zorakılıq da var və bu fiziki zorakılıqdan daha ağır nəticələr verir.

### Zorakılığın 3 əsas səbəbi var

Psixoloq Mələhət Həsənovanın sözlərinə görə birinci səbəb stress, əsəb yaradan işlərdən, genefondu dağıdan transgen qidalardan, eləcə də hər saniyə daha da korlanan ekologiyadan qaynaqlanır: "İnsanlar nə qədər ki, süni qida, genetik modifikasiya olunmuş məhsullar yeyəcəklər, ağır və stressli iş rejimi ilə çalışacaqlar elə belə də davam edəcək. Nəticə isə özünü ağır formada göstərir. İşdə, küçədə əsəbləri tarıma çəkilən kişi və ya qadın bütün hirsini evdəkilərin üstünə tökür, etiraz edən, səsini çıxaran olanda da zorakılıq tətbiq edir.

İkinci səbəb qeyri-düzgün yaşam, uyğunlaşmayan baxışlar, uyuşmazlıqlardır. Əgər kişi evləndiyi qadını sadəcə görüntü olaraq bəyənirsə bu sonralar böyük problemlərə səbəb olur. Uyğun gəlməyən xasiyyətlər ailəiçi münaqişələrin təməlində durur. Üçüncü səbəb ictimai təsirlərdir. Çoxları eşitmiş olar, bizim cəmiyyətdə kobud bir məsəl var, "qızını döyməyən, dizini döyər". Onun müasir versiyası da var ki, qızını oğlunu sevməyən sonra dizini döyər, çünki o övladlar böyüyüb onlarla davranılan kimi davranacaqlar. Çünki ailədaxili zorakılığa məruz qalan hər bir uşaq gələcəkdə bunu öz övladına qarşı tətbiq edəcək deyir".

Ailədaxili zorakılıq bir çox formada təzahür edə bilər, yumruq atma, təpikləmə, söyüş, hər hansı soyuq alətlə vurma, odlu silahlarla qorxutma və ya yaralama, zorla evləndirilmə, cinsi əlaqəyə məcbur etmə, evdə dustaq etmə və s. Bunlardan əlavə, ailə üzvlərinə qarşı səs ucaltmaq, başqalarının yanında hörmətdən salmaq, qürurunu qırmaq da zorakılıq sayılır. İqtisadi imkanların məhdudlaşdırılması, yəni maddi sıxıntıya salmaq da ailədaxili zorakılığın bir növü hesab edilir.

### Kimin gücü kimə yetirsə...

Ailədaxili zorakılığın ən çox zərər çəkmiş hədəfi qadınlardır, onlar döyülürlər, söyülürlər, təhqir və təcavüz edilirlər, yaralanırlar və hətta öldürülürlər də. Qadının ailədəki zorakılığı dözməsinin bir çox səbəbi var, özünü gücsüz hesab edir, maddi cəhətdən asılıdır, cəmiyyətin qınağından qorxur. Bizim cəmiyyətdə kişinin zorakılığa məruz qalması nadir hal olsa da rast gəlinəndir. Kişilər daha çox mənəvi zorakılığa məruz qalır. Kişilər daha çox həyat yoldaşlarının təhqiri, lağ etməsi, kobud davranması kimi mənəvi zorakılıq görürlər.

Ailədaxili zorakılıqdan ən çox zərər çəkənlər uşaqlardır. Ana-ata arasındakı mənəvi və fiziki basqının altında çox vaxt uşaqlar qalırlar. Valideynlər arasındakı anlaşmazlıqlardan, davalardan, zorakılıqdan uşaqların da payına düşür. Ailədaxili zorakılıq zamanı uşağa yönəlmiş, istər fiziki, istərsə də mənəvi basqı sərgiləyən hər cür davranış uşaq istismarı deməkdir.

Ailədaxili zorakılıqda qocaların yeri narahatlıq yaradacaq qədər genişdir. Ölkəmizdəki qocalar evlərində olan yaşlıların sayından bu cür halların əslində nə qədər çox olduğunu təxmin etmək olar. Bəzən övladları valideynlərini qocalar evinə göndərmək istəmir, çünki ya cəmiyyətin qınağından qorxur, ya da qoca valideyninin təqaüdünü itirməkdən. Buna görə də valideynə özü baxır. Amma necə baxır, orasını çoxumuz təxmin edə bilirik.

Yaşlı və qocalara zorakılıq bir çox formada təzahür edir, bu fiziki zərər vermə də ola bilər, leqeydlik, maddi sıxıntı vermək, malmülkünə sahiblənmək, təhqir etmək, qürurunu sındırmaq kimi mənəvi zorakılıq da ola bilər. Ailədaxili zorakılıqdan əziyyət çəkənlərin sığına biləcəkləri yer olmalıdır. Hər hansı mərkəzlər, sığınma evləri. Ölkəmizdə qadınlar və uşaqlar üçün sığınacaqlar var, lakin imkanları məhduddur. Zorakılığa məruz qalan kişilər üçün ölkəmizdə sığınacaqlar yoxdur, ƏƏSMN-nin nəzdində sosial evlər var ki, ora da daha çox qalmağa yeri olmayan, küçədə yaşayan, ailəsi olmayan insanlar yerləşdirilir.

***Lalə Mehralı***








# Sağlam cəmiyyətin formalaşmasında gənclər önəmli faktordur

***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq iyulun 17-də Qəbələ rayonunda "Narkomaniya ilə mübarizə hər bir şəxsin fərdi məsuliyyətidir" mövzusunda tədbir keçirilib.***

Qəbələ Arxeoloji Mərkəzində baş tutan tədbirdə Qəbələ, Oğuz, Şəki, Qax, Balakən və Zaqatala rayonlarını təmsil edən fəal gənclər iştirak ediblər.

Əvvəlcə Qəbələ Arxeoloji Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə qədim Qəbələ şəhərinin tarixi və sərgilənən eksponatlar haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tədbirdə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyanın sədri Arif Allahverdiyev, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Əli Səmədov və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər. Qeyd olunub ki, sağlam cəmiyyətin formalaşması üçün narkomaniya ilə mübarizə mühüm əhəmiyyətə malikdir. Bu istiqamətdə əsas məqsəd yeniyetmə və gənclərin belə zərərli vərdişlərdən uzaq durmalarına nail olmaq və maarifləndirmə işini lazımi səviyyədə aparmaqdır. Diqqətə çatdırılıb ki, narkomanlığa və narkotiklərə qarşı effektiv mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə bu istiqamətdə atılan addımlar, həyata keçirilən mübarizə tədbirləri nəticəsində mühüm uğurlar əldə olunub. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer verildiyi qeyd edilib.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təbliği məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

# Sülh savaşı: kim batil, kim doğru?

**Ermənistanla Azərbaycan arasında sülh axtarışı vasitəçilərdən birinin işə tərs yanaşması səbəbindən yenidən düyünə düşüb. Bəyanatlar, açıqlamalar, münasibətlər bunu deməyə əsas verir. 30 illik münaqişə bitmək üzrədir. 44 günlük ikinci Qarabağ müharibəsi daşları yenidən dizayn etdi. Əgər müharibəyə qədər Ermənistan və onun havadarları, münaqişə üzərindən bölgəni nəzarətdə saxlayan güclər Azərbaycanı görməzdən gəlir, bizimlə hesablaşmaq, ən azından BMT TŞ-nin 4 qətnaməsini həyata keçirmək istəmirdilərsə, bu gün vəziyyət tam olaraq dəyişib. Müharibənin nəticələri Azərbaycanı diktə edən tərəfə çevirib.**

## Maskalar yırtılır...



Bu gün həm də diqqət masa(lar)ya yönəlib. Şərti Ermənistan-Azərbaycan sərhədində ara-sıra təxribatlar törədilsə də Vaşinqton, Brüssel və Moskva platformaları sülh müqavilə-



sinin imzalanması üçün təşəbbüslər göstərirmiş kimi davranırlar. Əslində hər üç platform mahiyyət etibarilə ATƏT-in keçmiş Minsk qrupuna çox bənzəyir. Kosmetik dəyişiklik aparmaqla münaqişəni yeni şərtlərlə həll etməyə çalışan "üçlük" bu dəfə Azərbaycanın güc faktorunu nəzərə almaq zorundadır. Həm müharibədə qazanılam qələbə, həm beynəlxalq norma və prinsiplər, həm də Azərbaycanın haqlı tərəf olması ölkəmizə danışıqlarda kifayət qədər üstünlük qazandırır. Bunu danışıqlarda vasitəçilik edən platform təşkilatçıları bilməmiş deyil. Hər üç vasitəçi sülhün olacağını istisna etmir, amma imza atılan məkanın kimə məxsus olduğu Moskva, Brüssel və Vaşinqton üçün çox vacibdir.

Müharibənin başlandığı gündən indiyədək regionda bu və ya digər şəkildə təmsil olunan Rusiya 2020-ci il müharibəsindən sonra da təşəbbüsü ələ almaq istədi. Bunun üçün sülhməramlı adı altında, 1960 nəfərlik hərbi kontingentlə Qarabağa yerləşdi. Moskva bu addımı ilə üstün mövqeyə çıxdığını düşünürdü. Üçtərəfli noyabr Bəyanatından cəmi iki ay sonra, 2021-ci ilin yanvar ayında Moskvada Putinin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan liderlərinin görüşünü təşkil etməkdə də Rusiyanın bir məqsədi var idi. Amma zaman keçdikcə təşəbbüs Qərbin, yeni Brüssel və Vaşinqtonun tərəfinə keçdi. Maraqlıdır ki, həm Vaşinqton, həm də Brüssel görüşləri xüsusi ssenari üzrə keçirilir. Moskvadan fərqli olaraq əgər Brüssel platforması detalların müzakirəsi ilə məşğul olursa, Vaşinqtonda daha dərin və incəliklərinə qədər araşdırma aparılır. Məsələn, son Moskva görüşü 20 dəqiqə çəkmişdi, Brüsseldə müzakirələrə bundan 10-20 dəfə artıq zaman xərclənmişdi, Vaşinqtonda isə danışıqlara 3-5 gün ayrılmışdı. Yəqin ki, fərqinə vardınız? Sanki Moskvada müzakirə olunacaq bir mövzu yoxdur, sanki 30 illik erməni işğalı olmayıb, sanki Rusiya regionda təzədir və nəhayət Rusiyanın deyəcəyi, müzakirə edəcəyi heç nə yoxdur.

Rusiya danışıqların və nəticənin onun təyin etdiyi çərçivədən kənarda baş tutmasını qəbul edə bilmir. Əgər Vaşinqton və ya Brüssel sülh müqaviləsinin imzalanmasını təşkil edə bilsələr, bu, Moskva üçün hər şeyin itirildiyi və bitdiyi anlamına gələ bilər. Ona görə də Qərbin istənilən təşəbbüsünün əleyhinə çıxış edir. Rusiya Xarici İşlər Nazirliyinin iyulun 15-də Qarabağdakı vəziyyətlə bağlı yaydığı bəyanatı da buna əsaslanır. Bu, Rusiyanın maskasının yırtıldığı deməkdir.

Düzdür, Azərbaycan XİN Rusiyanın bəyanatına tutarlı cavab verib. Diplomatik gərginlik özünü sərhəddə eskalasiyanın artmasında və separatçıların aktivləşməsində də özünü göstərir. Azərbaycan isə xüsusilə Rusiya ilə münasibətlərə hər zaman həssas yanaşıb. Münasibətlərin gərginləşməsində maraqlı olmadığını büruzə verib, savaşa yox, barışa üstünlük verib. İnsafla desək Putin hakimiyyəti ilə ümumi dil tapmağı da bacarmışıq. Amma Rusiyanın diplomatik korpusunda və hərbi strukturlarındakı bəzi qüvvələr bundan narahat olduqlarını hər addımda ortaya qoyublar. Brüssel görüşündən sonra ilk etirazların Rusiya XİN-dən gəlməsi və Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasındakı separatçıların aktivləşməsi deyilənlərə əyani sübutdur. Rusiya XİN-in bəyanatının yayılması təsadüf deyil və bu, Brüssel görüşünə Moskvanın cavabıdır.

İndi isə gəlin, Rusiya Xarici İşlər Nazirliyinin yaydığı açıqlamaya diqqət edək: "2022-ci ilin oktyabrında və 2023-cü ilin mayında Avropa Birliyinin himayəsi ilə keçirilən sammitlərdə Ermənistan Dağlıq Qarabağı Azərbaycan ərazisinin bir hissəsi kimi tanıyıb. Biz Ermənistan rəhbərliyinin suveren qərarına hörmətlə yanaşırıq, lakin bu, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il sazişinin imzalandığı 9 (10) noyabr bəyanatı fundamental şərtləri, eləcə də bölgədə yerləşən Rusiya sülhməramlı qoşunlarının vəziyyətini kökündən dəyişdi. Hesab edirik ki, bu şəraitdə Qarabağın erməni əhalisinin taleyi üçün məsuliyyət üçüncü ölkələrin üzərinə atılmamalıdır. Əvvəllər əldə edilmiş razılaşmalar əsasında Bakı ilə İrəvan arasında dərhal sülh müqaviləsinin hazırlanmasına başlamaq lazımdır.

Biz ondan çıxış edirik ki, bu sazişin tərkib hissəsi Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin etibarlı və aydın təminatları olmalıdır, habelə Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli sazişlərin bütün bəndləri, o cümlədən nəqliyyat kommunikasiyalarının açılması və Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası prosesi yerinə yetirilməlidir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Rusiya tərəfi beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağın normal həyatının bərpasına yönəlmiş səylərinə fəal töhfə verməyə hazır olduğunu bir daha təsdiq edir. Biz yaxın vaxtlarda Moskvada yüksək səviyyəli razılaşmaların həyata keçirilməsi yollarını, o cümlədən sülh müqaviləsinin razılaşdırılması mövzusunu müzakirə etmək, ardınca sənədin imzalanması üçün Moskvada Rusiya-Azərbaycan-Ermənistan sammiti keçirmək üçün xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etməyə hazırıq.

Bu gün Dağlıq Qarabağ ətrafında vəziyyətin neqativ ssenaridə inkişaf etməsi narahatlıq doğurur. Ərazidə humanitar böhran getdikcə dərinləşir. Yerli əhali ərzaq, dərman, ilkin tələbat mallarının kəskin çatışmazlığını yaşayır, elektrik enerjisi və qaz təchizatından praktiki olaraq məhrumdur. Bunun ən dramatik nəticələri Qarabağ erməniləri, bölgə sakinləri üçün ola bilər.

Biz Azərbaycan rəhbərliyini Laçın dəhlizinin blokunun dərhal açılması, bununla da hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin maneəsiz hərəkətinin, eləcə də rayonun enerji təchizatının bərpası üçün təcili tədbirlər görməyə çağırırıq". Qeyd edək ki, Azərbaycan XİN bu bəyanatı qəbuledilməz adlandırıb.

### Aİ Ermənistan-Azərbaycan dialoqunu intensivləşdirir

Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü separatçıların Xankəndidə "Laçın dəhlizinin blokadasına son qoyulması tələbi ilə" keçirilən mitinqi fonunda baş tutub. İlham Əliyevlə Nikol Paşinyan arasında Avropa Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə növbəti üç saatlıq görüş əvvəlkilərdən daha mənalı görünür. Hər halda, Şarl Mişel özü belə düşünür. Onun sözlərinə görə, iki ölkənin liderləri "digər ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmətlərini" bir daha təsdiqləyiblər, bu da İrəvanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıması deməkdir. Bunu nəzərə alaraq, gələcəkdə sərhədlərin delimitasiyası prosesinə başlamalı olan komissiyaların statusu ilə bağlı müzakirələr davam etdirilir.

Tərəflər Bakı, İrəvan və Moskvanın uzun müddətdir ki, baş nazir müavinlərinin rəhbərlik etdiyi üçtərəfli komissiya formatında müzakirə etdiyi məsələ - regionda nəqliyyat marşrutları ilə bağlı bəzi şərtləri müzakirə ediblər. Qərb indiyədək bununla bağlı rəsmi səviyyədə heç bir ciddi şərh verməyib. İndi belə görünür ki, Aİ dəmir yolu xətlərinin tezliklə bərpası üçün maliyyə yardımı göstərməyə hazırdır. Şarl Mişel brifinqdə dediyi kimi, bəzi təfərrüatlar dəqiqləşdirmə tələb edir. Əlavə edib ki, bu mövzuda mövqelər yaxınlaşır və variantlar fəal şəkildə işlənir.

Hələ sammit başlamamışdan əvvəl Nikol Paşinyan Qarabağdakı separatçı qurumun rəhbəri Arayik Arutyunyanın məktubunu Şarl Mişelə təqdim edib və bu məktubu "Azərbaycanın yeddi aydan artıqdır ki, bağladığı Laçın dəhlizinin qarşısının alınması üçün bütün səyləri göstərmək" xahişi ilə müraciət edib. 2020-ci ilin noyabrında imzalanmış sənədə əsasən, yolun düzgün işləməsi üçün məsuliyyəti Rusiya sülhməramlılarının üzərinə götürdüyünü hər kəs bilir. Şarlz Mişel əmin edir ki, Bakı "Ağdam vasitəsilə humanitar yardımın çatdırılmasını təmin etməyə" hazırdır, yəni Ermənistandan deyil, Azərbaycanın özü vasitəsilə lazımi vəsaitlərin çatdırılması mümkün olacaq.

Erməni politoloq Armen Xanbabyan isə adəti üzrə absurd, heç bir məntiqə sığmayan açıqlama verib və qeyd edib ki, guya Azərbaycan Prezidentinin belə bir təklifi Laçın dəhlizinin blokadası nəticəsində Qarabağda humanitar böhranın mövcudluğunu tanıması deməkdir: "Bu təklif reallaşarsa, kimin Qarabağa yük daşıyacağını anlamaq da vacibdir - Rusiya sülhməramlıları, yoxsa Azərbaycan tərəfi. Tam aydındır ki, "humanitar karvanı" Azərbaycana girsə, oradan çıxmayacaq".

Avropa İttifaqı Bakı ilə Qarabağdakı ermənilər arasında birbaşa dialoqun tərəfdarıdır ki, bu da münaqişə tərəfləri arasında "etimadın artmasına" xidmət etməlidir. Rusiya XİN-in bəyanatı isə bu mühitin üstündən xətt çəkməyə hesablanıb. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında xüsusilə qeyd olunur ki, Moskvanın mövqeyi Azərbaycan və Rusiya arasında müttəfiqlik əməkdaşlığı haqqında bəyannamə və Rusiya prezidenti Vladimir Putinin Azərbaycanın, o cümlədən Qarabağın ərazi bütövlüyü və suverenliyini dəstəkləyən çıxışlarına uyğun gəlmir. Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini 30 ilə yaxındır ərazilərimizi işğal altında saxlayan Ermənistanın baş nazirinin Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımasına başqa rəng verməsi qəbuledilməzdir.

Həmçinin, Bakı hesab edir ki, Ermənistan Rusiya sülhməramlılarının dəstəyi ilə öz silahlı birləşmələrini Qarabağda saxlamaqda davam edir. İrəvan isə deyilənləri yalnız inkar etməklə özünü təmizə çıxarmağa çalışır. Halbuki, bir müddət öncə Ağdam rayonu ərazisində baş vermiş erməni təxribatı nəticəsində 5 erməni silahlısının öldürülməsi bütün sirlərin üstünü açdı, eyni zamanda erməni yalanlarını ifşa etdi.

Qərb sülh prosesinə nəzarəti ələ keçirməyə çalışır və bu, Moskvanı getdikcə daha çox narahat edir. Şarl Mişel yay tətilindən sonra Brüsseldə daha bir çoxtərəfli görüşün mümkünlüyünü artıq elan edib. Orada Fransa və Almaniya liderlərinin də iştirak edəcəyi gözlənilir. Beləliklə, Aİ sülh prosesində "ən əhatəli və güclü mərhələnin" eyni intensivliklə davam edəcəyini gözləyir. Moskvada sammitin keçirilə biləcəyi barədə hələlik məlumat yoxdur.



### Sülhdə əsas odur ki, mübahisə etməmək

İrəvanla Bakı arasındakı münaqişədə əsas sülhməramlı olmaq hüququ uğrunda rəqabət getdikcə kəskinləşir. Rusiya və Qərb bir-birinin səylərinə qısqanclıqla yanaşır. İyulun 15-də Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyan arasında aparılan danışıqlar da istisna olmayıb. Onlar Brüsseldə irəliləyişdən danışarkən, Moskva iki respublikanın xarici işlər nazirlərini danışmağa dəvət edir, sülh müqaviləsinin yalnız Rusiya Federasiyasının vasitəçiliyi ilə əldə oluna biləcəyini təkid edir.

Ermənistan və Azərbaycan nümayəndələri 2023-cü ilin sonuna qədər sülh müqaviləsi bağlamaq imkanını dəfələrlə etiraf ediblər. Tərəflər vasitəçi qıtlığı yaşamırlar. Avropa İttifaqı, ABŞ və Rusiya nizamlanmaya kömək etməyə, hətta daha yaxşısı, tarixi sənədlərin imzalanmasının birbaşa iştirakçılarına çevrilməyə hazırdır. Moskva və Qərb vahid cəbhə kimi çıxış edə bilməz. Buna görə də, ilin sonuna yaxınlaşdıqca, daha çox rəqabət aparan vasitəçilər həlledici töhfə verməyə tələsirlər.

İyulun 15-də Brüsseldə Ermənistanın baş naziri və Azərbaycan Prezidentinin Şarl Mişelin vasitəçiliyi ilə keçirilən görüşdə "siyasi təkan" qeydə alınıb. Tərəflər nəinki Ermənistan ərazisinin 29,9 min kvadrat kilometr olduğunu (yəni Qarabağsız), eyni zamanda Azərbaycan ərazisinin də 86,6 min kvadrat kilometr (Qarabağla birgə) olduğunu yenidən qeyd ediblər. Nəqliyyat kommunikasiyalarının açılmasında da irəliləyiş əldə edilib. Ş.Mişel Laçın yoluna da toxunub. Bildirilib ki, Azərbaycan Qarabağ üzərində suverenlik məntiqinə uyğun olaraq keçid məntəqəsi qurub, buna görə də İrəvan 200 gündən artıqdır ki, Bakını qanuni haqqına girməyə, Ermənistanda Qarabağa gediş-gəlişin əvvəlkitək davamlı olmasını istəyir. Amma Bakının da arqumentləri tutarlıdır. Qanunsuz yükləri öz ərazilərinə buraxmamaq Azərbaycanın haqqıdır.

Brüssel danışıqları əslində iki həftə yarım əvvəl Ermənistan və Azərbaycan xarici işlər nazirləri Ararat Mirzoyan və Ceyhun Bayramovun dialoq apardığı Vaşinqtonun səylərinin davamı oldu. Daha sonra ABŞ dövlət katibi Entoni Blinken gələcək sülh müqaviləsinin bəzi maddələri üzrə razılaşmanı elan etdi. O, həmçinin Paşinyanla Əliyev arasında Brüsseldə görüş keçiriləcəyini elan edərək, onları "yaxın həftələr və aylarda yekun razılığa" nail olmaq istəyinə inandırıb. Moskvada isə Qərbin İrəvanla Bakını barışdırmaq cəhdlərinə həmişə skeptisizmlə yanaşılıb. Belə ki, mayın əvvəlində Prezidentin mətbuat katibi Dmitri Peskov bəyan etmişdi ki, Rusiyadan başqa heç kim respublikalara münasibətlərin tənzimlənməsinə kömək etməyəcək. Onun sözlərinə görə, proses 2020-ci ilin noyabrında Dağlıq Qarabağda döyüşləri dayandıran Rusiya Federasiyası, Ermənistan və Azərbaycan liderlərinin Üçtərəfli Bəyanatı əsasında qurulmalıdır.

Prezident Vladimir Putinin 2020-ci ilin dekabrında verdiyi bəyanatda bölgəni açıq-aydın "Azərbaycan Respublikasının ayrılmaz hissəsi" adlandırıb. Ermənistandakılar nəhayət başa düşməlidirlər ki, İrəvanın bu reallığı tanıyıbsa və Moskva da bunu belə qəbul edirsə müqavimətə, etiraza heç bir lüzum yoxdur. İki respublikanın xarici işlər nazirlərinin Rusiya paytaxtına nə vaxt səfər edəcəyi bəlli olmasa da Paşinyanla Əliyevi payızda yenidən Brüsselə səfərə dəvət edilmələri dəqiqdir.

**V.VƏLİYEV**

---

# Sorosun ardınca...

## Qrantyeyənlərin "fond layihəsi" kimə və nəyə xidmət edir?



Bu günlərdə Azərbaycanın informasiya məkanına şok məlumat daxil oldu. Bəlli oldu ki, Londonda İngiltərə və Uels üçün Xeyriyyə Komissiyası tərəfindən "Azərbaycan Gənclərinin Təhsil Fondu" (AGTF) qeydə alınıb. Kiçik araşdırma nəticəsində məlum oldu ki, bu "xeyirxah" işin həmmüəllifləri cəmiyyətdə yalnız mənfi imicləri ilə tanınan Milli Şuranın fəxri sədri, bu yaxınlarda həm ABŞ-dan, həm də İngiltərədən qovulan (ona müasir dildə deportasiya deyirlər - müəllif) tarix professoru Cəmil Həsənli, diplomatik fəaliyyətində yol verdiyi satqınlıq, xəyanət cəzasından yayınmaq üçün Avropa dövlətlərindən birinə qaçan Arif Məmmədov və hələlik iqtisadiyyatda heç bir uğur qazana bilməyən, əvəzində siyasi partiyasını da itirən Qubad İbadoğludur.

Məsələnin əsl mahiyyəti ortaya çıxana qədər hər kəs, yəni bu məlumatı oxuyanlar bu "qəhrəmanlar"ın ünvanına bir "molodes" göndərirdilər. Ta ki, bütün detallar üzə çıxana qədər. AGTF-nin başlıca məqsədinin "bilikli və istedadlı gənclərə xaricdə təhsil almada, eləcə də gənc alimlərə beynəlxalq elmi konfranslarda araşdırmalarının nəticələrinin təqdim edilməsində hər cür dəstək vermək" olduğu deyilir və yazılırdı. Bəli, demək də, yazmaq da ayıb deyil, deyilənlərə əməl etməmək isə dələduzluqdur. Bu söz rus dilində daha yaxşı səslənir - "moşennik"lik.

"İtlə dostluq et, çomağını əlində saxla", "İlandan gələn xeyir ancaq zəhər olar" deyimləri hər addımda insanın yadına düşür, ya da yada salmalı olursan bu kəlmələri. İndi elə zamana gəlib çıxmışıq ki, hər sözü, hər təklifi araşdırmağa, saf-çürük etməyə məcburuq. Özlərini müxalifətin "qaymaq"ları hesab edən bu 3 "dahi"nin yaratdığı yeni Fondun fəaliyyəti nəticəsində gənclərimiz əlavə dəstək ala biləcəklərini düşünmək olardı. Bizim də 4-cü sinifə qədər təhsilimiz var, pisi yaxşıdan seçməyi də bacarırıq, fondun kassasında nə qədər vəsait ola bilər, sualının cavabını da bilirik. Fərqindəyik ki, fond maliyyə vəsaiti olan bir təsisatdır. Yəni istər xaricdə, istərsə də Azərbaycanda təhsil almaq istəyən, lakin maddi vəsaiti olmayan gənclərə belə fondlar tərəfindən yardımlar göstərilir, qırılan ümidləri bərpa edilir. Heydər Əliyev Fondu tərəfindən gənclərimizə qayğı, təhsillə bağlı verilən dəstək göz qabağındadır. Bu iş səhiyyə və digər sosial sahələrdə də yüksək səviyyədə aparılır. Əgər "üç müşketyor"un yaratdığı fond da bu savaba xidmət etsəydi, nə dərdimiz olardı. Amma

Nəzərə alsaq ki, hər üç şəxs - həm Cəmil Həsənli, həm Qubad İbadoğlu, həm də Arif Məmmədov bu qabiliyyətin yiyəsi deyillər və ömürləri boyu onun-bunun atdığı ilə dolanıblar, xüsusən də fəaliyyətlərində heç bir uğura imza atmayıblar, fond yaratmaqla nə isə edə biləcəkləri ağılabatan deyil.

Fikirlərimizin doğru olduğunu isbat etmək üçün gəlin, hər üç şəxsin "həyat və yaradıcılığına" bir daha nəzər salaq. Ən azından ona görə ki, gənclərimiz aldanmasın, bu riyakarların, özündən başqa kimsənin maraqlarına hörmət etməyənlərin toruna düşməsinlər. Cəmil Həsənli barədə BAXCP sədri, deputat Qüdrət Həsənquliyevin fikirləri maraqlıdır. O, deyib ki, Cəmil Həsənlinin "fəxri sədr" olduğu Milli Şura insanları təhqir edir. Cəmil Həsənli azərbaycanlı olduğuna görə utandığını deyir. Bəli, o utana bilər. Çünki nə qədər ki, deputat idi, fikirləri, münasibəti bam-başqa idi. Deputat seçilmədikdən sonra isə başladı ağlına və ağzına gələni danışmağa. Belə insanlara niyə etimad edilməlidir ki?".

Bir faktı da deyək, Britaniya Parlamentində qondarma erməni soyqırımı üzrə dinləmələr keçirilən zaman Azərbaycanın "radikal müxalifət" təmsilçiləri dəbu dinləmələrə dəstək verib. Təsadüfi olmayan bu hadisələr sinxron hərəkətlər idi. 2019-cu ildə ABŞ Konqresi "erməni məsələsi"ni gündəmə çıxaranda, həmin ilin oktyabr ayında qondarma "dağlıq qarabağ respublikasının" qondarma "xarici işlər naziri" Masis Mayılyan ABŞ-a səfər etmişdi. Bilirsiniz həmin tədbirdə Azərbaycandan daha kim var idi, əlbəttə, Cəmil Həsənli. Azərbaycan diaspora nümayəndələri Konqres qarşısına toplaşıb Masis Mayılyana etiraz edəndə bəlli oldu ki, Milli Şura sədri Cəmil Həsənli də Vaşinqtondaydı. Mayılyan Konqresdə "DQR müstəqilliyini" qeyd edərkən Cəmil Həsənli də "Azərbaycanda demokratiyanın olmaması barədə" danışırdı. Azərbaycanın haqqını qorumayan, onun tələblərindən birini belə səsləndirməyən C.Həsənli indi hansı səbəblə Təhsil Fondu yaradır, hansı üzlə daim əleyhinə getdiyi ölkənin gənclərinə təhsil vermək, bunun üçün ətək-ətək para xərcləmək həvəsinə düşüb. Bu, gənclərə qarşı növbəti kələk deyilsə, bəs nədir?

C.Həsənli müəyyən dairələrin maraqlarını təmsil edir. İndiyəcən böhtan xarakterli, erməni mənbələrinə istinad olunan məlumatları Azərbaycan cəmiyyətinə sırımaqla məşğul olub. Xalqımız bunu da başa düşür ki, Cəmil Həsənli bu dövlətdən, bu xalqdan acıq çıxır. Növbəti parlament seçkilərində uğursuzluqlarının günahını sa seçicilərində görür. Ona görə də hədəfini cəmiyyətin daha həssas nöqtəsinə - gənclərə tuşlayıb. Bu gün C.Həsənlinin ətrafındakılar, yəni yaxın qohumları Azərbaycanda yaşamır, hamısı xaricdədir. Yalnız özü buralarda girələnir. C.Həsənli Avropada erməni qüvvələrindən istifadə edərək Azərbaycanın haqq işini müdafiə edən bəzi qurumları, təşkilatları şantaj edir.

Maraqlı bir fakt isə Arif Məmmədovla bağlıdır. Bəri başdan qeyd edək ki, "qaçaq diplomat" öz fəaliyyətində Fətullah Güləni özünə örnək kimi qəbul edir. Bəli, FETO-nun başçısı Fətullah Gülənin hakimiyyəti ələ keçirməkdə nadir üsul seçməsi heç kimə sirr deyil. Yetənəkli gənclər FETO-nun xarici mənbələrdən əldə etdiyi külli miqdarda paralar hesabına dünyanın ən tanınmış universitetlərinə təhsil alır və ölkəyə qayıdır. Müxtəlif sahələrdə işlə təmin olunur və bir müddətdən sonra yüksək qabiliyyətə malik gənclər hakimiyyət strukturlarında hər gün daha irəli çəkilir və plana uyğun olaraq idarəetməni ələ alırlar. Bu üsul hansı ölkədə tam olaraq həyata keçirildiyini qəti şəkildə deyə bilməsək də, qardaş Türkiyədə baş verənləri unutmamalıyıq. Məhz hakimiyyətin tam içinə oturmuş FETO-nun nə qədər ustalıqla davrandığının da şahidi olduq. Əgər Türkiyə xalqı vaxtında reaksiya verməsəydi, bu günün mənzərəsi fərqli olardı. Arif Məmmədovun da istəyi budur, o deyir ki, "məqsəd Azərbaycan üçün kadr bankı yaratmaqdır". Eyni FETO dəst xətti.

"Gənclərin qədirbiləni"Arif Məmmədovun Gəncədə baş verəcək iğtişaşlardan öncə gəncələri iğtişaşda iştiraka çağırış etməsini yada salaq. Generalımız öldürülən və 44 günlük müharibənin başlanğıcı olan Tovuz döyüşlərində sərhəddə Ermənistanın hərbi təcavüzünə, Los-Ancelesdə, Avropada ermənilərin azərbaycanlılara hücumuna açıq dəstək verənlərdən biri də Arif Məmmədov idi. O çıxışlarında vurğulayırdı ki, guya müharibəni başladan Azərbaycandır və bunu ona görə edir ki, diqqət daxili problemlərdən yayınsın. Belə çıxır ki, Azərbaycan heç vaxt Qarabağı azad etməməli imiş. A.Məmmədovun COVİD-19 pandemiyası barədə uydurması isə heç bir əndazəyə sığmır. Bütün dünyada xəstəliklə mübarizə aparıldığı bir vaxtda Azərbaycanı suçlamaq, əlbəttə, bu adamın dayazlığından, yetkin parazit olmasından xəbər verir.

Qubad İbadoğlundan isə danışmağa dəyməz. Özünü Böyük Britaniyada hansısa universitetin "əvəzolunmaz" professor hesab edən, Azərbaycan üçün "əlini daşın altına qoymağı" özünə sığışdırmayan bir uğursuz iqtisadçının da bu üçlükdə təmsil olunması gənclərimizə qarşı ən böyük təxribatdır. Çünki onun şirin dilinə aldananlar ola bilər, vədlərinə inanıb xaricə üz tutanlar tapılar. Sonrakı peşmançılıq fayda verməz, atalar misalını da xatırladaq ki, sonra kimsə deməsin ki, demədiniz.

Maraqlı sualın cavabını biz də axtarırıq, Təhsil Fondunun maliyyə qaynağı haradandır, yaxud pulları bu fonda kim yatıracaq? Bəli, əldə etdiyimiz məlumata görə, bu məsələdə SOROS Fondunun adı daha çox hallanır. Erməni lobbisi ilə dolayı yolla əlaqəli olan mənbələr də var bu siyahıda. Amma bu fakt bəzilərində qərəz kimi başa düşülə bilər. Amma bu bir həqiqətdir ki, erməni mərkəzlərinin etdiyi ianələr həmişə açıqlanmır. Erməniləri əsas nəticə maraqlandırır. Əsas odur ki, bu fondun oxutduğu tələbələr hakimiyyət pilləsində daha tez irəliləyə bilsinlər. Beyni yuyulmuş, idarə olunan bu gənclərin nələr törədə biləcəyini təsəvvür etmək bizi ehtiyatlı olmağa səsləyir. Diplomatiyada, siyasətdə, iqtisadiyyatda uğursuzluğa düçar olmuş "vətənpərvərlər"in "xeyirxah" əməlindən şübhələnməyə dəyər. Gələcəyimiz olan gəncləri qorumaqda fayda var, inanın.

**V.SALAH**

# Şuşada Vaqif poeziya günləri



**Qarabağın incisi Şuşamız yenidən toy-büsata büründü. 28 illik zamandan sonra yenidən öz həyatına qovuşan Şuşada bir-birindən fərqli məzmunda keçirilən tədbirlərə saysız insanlar toplaşır. Dili, irqi fərqli olan insanlar bu məkanın gözəlliyini duyur. Erməni işğalından azad olan qədim şəhər hər birimiz üçün and yerinə, müqəddəs məkana çevrilib.**

Şuşa yenidən başqa bir ab-havanı yaşadı. Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi önündə Vaqif Poeziya Günləri keçirildi. Dövlət və hökumət nümayəndələri, respublikanın tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan Yazıçılar Birliyinin üzvləri, gənc yazıçılar, şairlərin toplaşdığı məkanda Şuşa daha bir möhtəşəm tədbirə sahiblik etdi. Bu tədbir ölkənin həyatında əlamətdar hadisədir. Vaqif Poeziya Günləri, əslində, sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramıdır. Molla Pənah Vaqifin adının UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətdir. 2017-ci il, həmçinin Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən "Molla Pənah Vaqif İli" elan edilərək, bu çərçivədə tədbirlər keçirilib. Uzun illərdir dövlətimiz tərəfindən tanınmış şəxsiyyətlərin yubileylərinin yüksək səviyyədə qeyd edilməsi, əsərlərinin nəşri və təbliği Molla Pənah Vaqif irsini də əhatə edib. Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 12 yanvar tarixli Sərəncamına əsasən, ölkəmizdə şairin xatirəsinə həsr edilmiş elmi-praktik konfranslar, rəsm sərgiləri və digər bu qəbildən olan silsilə tədbirlər keçirilib. Dünya miqyasında Vaqif kimi sənətkarın təbliği onun sənət dünyasının fikir yüküdür. Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının veziri Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını Ulu Öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də məqbərənin açılışı olub. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilir. Şuşada Vaqif Poeziya Günləri çərçivəsində müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" unikal triptixi, ensiklopedik xatirə xalça kompozisiyası-müəllif əsərinin təqdimatı olub.

## QARABAĞ TARİXİNDƏN DÜNYAYA MESAJ

Əlbəttə ki, Şuşa musiqi beşiyidir. Buranın hər ağacı, hər qayası, axar suyu bu musiqinin avazı ilə nəfəs almış, bu musiqi qayaların, divarların, lal daşların da yaddaşına hopmuşdur. Bu gün artıq həsrətlə gözlədiyimiz Şuşamızın, "Qafqazın Konservatoriyası"nın torpağındayıq. Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşada. Burada "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi Azərbaycanın mədəni həyatının təntənəsinə çevrilib. Bu gün Vaqifin ruhu şaddır. Poeziya günləri çərçivəsində çıxışlar, ədəbi simpoziumlar, sərgilər təşkil olunur. Vaqif Poeziya Günləri təkcə ədəbiyyatdan, sənətdən deyil, Qarabağ tarixindən də dünyaya bir mesajdır.

Ruhu bu məkanlarda dolaşan insanlar azad, rahat nəfəs alırlar. Bülbülün, Natəvanın, Üzeyirin və digər sənətkarların ruhu mənən rahatlandı. Şuşalılar Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün heykəlləri önünə gül dəstələri qoyaraq ziyarət etdilər. Uzun illər idi ki, heykəlləri güllələnmiş Xan qızı, Üzeyir bəy, böyük nəğməkar Bülbül öz doğma yurdlarına qayıdacaqları günü gözləyirdilər. Belə ki, donmuş üzlər hərəkətə gəldi, uzaq kimi görünən yollar bir addımlıqda oldu. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Cansız heykəllərə güllə ataraq qiymətli heykəlləri, milli memarlıq abidələrini, muzey əşyalarını güllələbəran etmişdilər. Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır. Azad Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli də ucaldılıb.

## "ZƏFƏR ADI XALQIMIZA ÇOX YARAŞIR"

Bu torpaqda Böyük Qayıdışın işığı alovlanır. Şuşada Dünya Azərbaycanlılarının V Qurultayı keçirildi. Bu Qurultaya Zəfər adı verildi. Həmin adın verilməsi heç də təsadüfi deyil, müharibədə qazandığımız tarixi zəfərə əsasən Zəfər Qurultayı adlandırıldı. "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər Qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır", - deyə Cənab Prezident bildirmişdir. Diaspor Gənclərinin III Yay Düşərgəsinin iştirakçıları Şuşada oldular. Dünyanın müxtəlif ölkələrində yaşayan gənclərimiz və Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri yol boyunca erməni silahlı birləşmələrinin Qarabağda törətdikləri vandalizm aktlarının, eləcə də hazırda azad edilmiş torpaqlarımızda həyata keçirilən tikinti-quruculuq işlərinin şahidinə çevrildilər. Bu və ya digər tədbirlər Şuşanın ruhuna ruh qatmış oldu.

Qısa bir zamanda abadlıq-quruculuq işlərinə başlanıldı. Ötən müddət ərizində böyük işlər görüldü və bu gün abadlıq-quruculuq işlərinin sürəti artıb. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, yarımstansiya tikildi. Zəfər yolu çəkildi, suyun verilməsi bərpa olundu. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Tezliklə, Natəvan bulağı bərpa olundu və "Xarıbülbül" hoteli istifadəyə verildi. Əsrlərin yaddaşı var bu diyarda. Öz köklü-şəcərəli insanlarına qucaq açıb. Vaqif Poeziya Günlərinin iştirakçıları "Türk dünyasının mədəniyyət paytaxtı"nı ziyarət edərkən buranın böyük abadlıq-quruculuq meydanına çevrildiyinin şahidi oldular. Milli Xalça Muzeyinin Şuşa filialın sərgilənən sənət əsərləri qədim Qarabağ torpağının ruhunu özündə yaşadır. Saatlı məscidində konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun aparılır. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılır. Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yuxarı Gövhər Ağa məscidi qonaqların diqqətindən kənarda qalmayıb.

## DAŞLAŞMIŞ YADDAŞDA TARİXİMİZ, KEÇMİŞİMİZ, MƏDƏNİYYƏTİMİZ

"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər və xalqımıza bu müjdənin verilməsi Azərbaycanın tarixinə açılan yeni səhifələrdən oldu. "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox", - deyə Cənab Prezident bildirib. Artıq biz Şuşaya qayıtmışıq. Alınmaz qala, Qarabağın tacı sayılan Şuşanın tarixi yaddaşı əsrlərin sorağıdır. Daşlaşmış yaddaşda tariximiz var, keçmişimiz, mədəniyyətimiz var. Tarixi-mədəni əhəmiyyət kəsb edən Şuşanın bu gün əvvəlki görkəminin özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər həyata keçirilir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, işğaldan azad olunan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradılır. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin Mədəniyyət paytaxtı elan edildi. Prezident İlham Əliyevin Şuşanı rəsmən Azərbaycanın Mədəniyyət Paytaxtı elan etməsi bu qədim şəhərin özəlliklərindən qaynaqlanır. Şuşa azadlığının ilk dövrünə mədəniyyət paytaxtı kimi qədəm qoydu. Şübhə yoxdur ki, Şuşa çox yaxın illərdə nəinki Azərbaycanın, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcəkdir.

2022-ci il dövlət başçısı tərəfindən "Şuşa ili" elan olundu. Şuşa 28 il əsarətdə qalsa da əyilmədi, milli qürurumuzu, kimliyimizi qorudu. Şuşanı erməniləşdirməyə çalışan düşmən illərlə cəhdlər göstərsə də, bunun mümkünsüzlüyünün şahidi oldu. Çünki danışan, erməni vəhşiliyinə şahidlik edən Şuşanın hər daşı, qayası, tarixi oldu. Tarixi və dini abidələri dağıtmaqla, izləri silməyə cəhd etməklə sahibi olmadıqları torpaqların onlara məxsusluğunu sübut etməyə çalışan ermənilər hər zaman fakt qarşısında aciz qaldılar və 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu düşmənə tarix boyu unuda bilməyəcək dərsi verdi.

Şuşada yeni bir həyat, qaynar dövr yaşanır. Dövlət başçımızın Şuşa şəhərinə etdiyi səfərlərin hər birində ya yeni infrastruktur layihələrinin təməli qoyulub, ya da yeniləri açılıb.

***Zümrüd BAYRAMOVA***

# İpək yolunun təəssüratları



Bir çox yaşanılan məqamlar var ki, onlar sonradan xoş və unudulmaz təəssüratlarla yaddaşımıza köçür. Təbii ki, belə təəssüratlar müxtəlif mövzularda, müxtəlif çağlarda, müxtəlif məqamlarda və s. ola bilər. Hətta oxuduğumuz kitabdan, baş verən hadisələrdən, gördüyümüz təbiət gözəlliklərindən, daha neçə-neçə maraq doğuracaq mövzudan təsirlənib izlənən hadisənin xoş təəssüratları ilə yaşamaq insanın mənəvi dünyasını daha da rövnəqləndirir. Bəzən bu xoş təəssüratlar uzun illər davam edərək ruhumuza da xoş təsir bağışlayır. "İpək yolu"nun təəssüratları da məhz bu qəbildəndir. Yəqin ki, bu təəssüratların nə olduğu oxucularımız üçün də maraqlıdır. İlk növbədə onu deyim ki, bu adi yol təəssüratı deyil. "İpək yolu"nun təəssüratları odur ki, "İpək yolu" da adi uzanan yol deyil. Əvvəla, "İpək yolu" Azərbaycanı qədim dövrlərdə Şərq və Orta Asiya ölkələri ilə qovuşduran mühüm ticarət yolu olub. Bu gün isə "İpək yolu" Azərbaycanı müxtəlif ölkələrlə qovuşduran mənəvi körpüyə çevrilib. İndi "İpək yolu" musiqi ilə müşayiət olunan dostluq, qardaşlıq münasibətlərini həyata keçirən və daha da möhkəmləndirməyə qadir olan mənəvi körpüdür. Bu, qədim ticarət yolu kimi də əsası Şəkidən başlayan və indi də mənəvi körpü olaraq da Şəkidə bərqərar olan "İpək yolu" Beynəlxalq Musiqi Festivalıdır. Bu Festivalın tarixi 2010-cu ildən başlayır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən Festivalın ölkəmizin mədəni həyatında böyük rolu var.









Bu barədə daha ətraflı fikirlər XII Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalından aldığım xoş təəssüratlarda öz əksini tapacaq. Amma, əvvəlcə qədim və gözəl Şəkinin dünyadakı şöhrətindən soraq verək.

Şəkinin çox zəngin tarixi, mədəniyyəti vardır. Şəki nəinki Azərbaycanda, dünya miqyasında gözəlliyi ilə seçilən şəhərlərdəndir. Şəki şəhəri 2010-cu ildə "Azərbaycanın Sənətkarlıq Paytaxtı" seçilmiş, 2012- ci ildə türk dünyasının qeyri-maddi mədəni irs paytaxtı, 2016-cı il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuş, 2017-ci ildə YUNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilmişdir. 2019-cu ildə ölkəmizin və şəhərin mədəni həyatında çox əlamətdar hadisə baş vermiş - Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

Beləliklə, şirin ləhcəli, qonaqpərvər Şəki artıq uzaq "İpək yolu"nu musiqi ilə rövnəqləndirərək neçə-neçə xalqlar və ölkələr üçün yaxınlaşdırır. Festivalın bədii rəhbəri, Azərbaycanın Xalq artisti, YUNESCO-nun "Sülh" artisti, AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin Festivalın ötən illəri və bu ilki proqramı barədə bəzi fikirlərini diqqətinizə yetirirk.

"Bildiyiniz kimi, biz artıq 11 festivalı böyük ugurla keçirmişik və dünyanın 40-a qədər ölkəsindən Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalına məşhur kollektivlər, görkəmli musiqiçilər, musiqişünas-alimlər təşrif buyurmuşdur.

Müxtəlif mədəniyyətlərin füsunkar təbiət qoynunda qovuşduğu bu məkanda yenədə Azərbaycan və dünya musiqi sənətinin parlaq nümunələrindən ibarət rəngarəng konsert proqramları təqdim edilərək, musiqisevərlərə xoş bayram ovqatı bəxş edildi.

Məlum olduğu kimi bu il Ulu Öndərimiz - Heydər Əliyevin anadan olmasının 100 illik yubileyidir. Heydər Əliyevin xatirəsinə ithaf olaraq Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin ifasında vətənpərvərlik mahnıları, F.Əmirov adına əməkdar kollektiv mahnı və rəqs ansamblının və "Zəfər" muğamqrupunun iştirakı ilə konsert proqramları festivala xüsusi rəng qatdı.



Xatırladaq ki, ötən illərdə keçirilən festivalların çox zəngin proqramı olub. Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl", F.Əmirovun "Sevil" operaları, Q.Qarayevin "Yeddi gözəl" baleti və habelə simfonik, kamera və vokal janrlarında digər klassik musiqi əsərləri böyük rəgbətlə qarşılanıb. Bu ilki, festivalda isə Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının solistlərinin ifasında mənim vətənpərvərlik mövzusunda və bizim qələbəmizi tərənnüm edən "İntizar" operası nümayiş olundu.




İyulun 3-dən 7-nə qədər keçirilən XII Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalına Türkiyədən, Çindən, Özbəkistandan, Qazaxıstandan təşrif buyuran musiqiçilər zəngin repertuarları ilə sənətsevərlərin zövqünü oxşadılar. Festivalda türk xalqlarının geniş şəkildə iştirakı TÜRKSOY-un yaxından dəstəyi ilə baş tutdu.

5 gün ərzində keçirilən Festival musiqi tariximizə də unudulmaz səhifələr bəxş etdi."

Əziz oxucular, XII Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı ilə bağlı təəssüratlarımı bölüşərkən əvvəlcə şəkililərin bu Festivala olan böyük marağından bəhs etmək istərdim. Bunun da başlıca səbəbi insanların musiqiyə məhəbbəti və şəhər rəhbərliyinin bu mənəvi tələbatı ödəməkdə xüsusi diqqət və qayğısından ibarətdir. Bu yerdə Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun fikirlərindən toxunduğu bəzi məqamlara nəzər salaq:

"Qeyd etmək lazımdır ki, Şəki Azərbaycanda Festivallar şəhəri kimi tanınır. Hər il bu şəhərdə keçirilən "İpək Yolu" Beynəlxaq musiqi, şirniyyat və teatr festivalları şəhərin qeyri-maddi irsinin qorunub saxlanmasına imkan yaratmış, eyni zamanda, turizm potensialının genişləndirilməsi və beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynamışdır.

Şəhərimizdə olarkən cənab Prezidentimiz İlham Əliyev demişdir: "Şəki böyük mədəniyyət mərkəzidir, zəngin tarixə, mədəniyyətə malik olan bir diyardır."

Şübhəsiz ki, Şəki "İpək yolu" XII Beynəlxalq Musiqi Festivalının yüksək səviyyədə qeyd olunması xalqımızın zəngin mədəniyyətinin, şəhərimizin turizm potensialının təbliği baxımından mühüm əhəmiyyətə malikdir".

Artıq neçə illərdir ki, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü və ya Festivalın koordinatoru kimi "İpək yolu"nun xoş təəssüratları məndə xoş hislər və düşüncələr aşılayır. Bir fikri xüsusi olaraq vurğulamağı özümə həm də mənəvi borc sayıram. Bu da Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubovun Festivalın işinə, onun təşkilinə göstərdiyi diqqət və müsbət münasibətidir. Uzun illər müşahidə etdiyim bu münasibət getdikcə daha da yüksək məna kəsb edir. Öz yüksək insani keyfiyyətləri, səmimi rəftarı, insanlarla xoş münasibəti, sənətə olan böyük sevgisi və sənətkarlara xüsusi qayğı və diqqətlə yanaşan Elxan Usubovun bu müsbət cəhətləri "İpək yolu" Beynəlxalq Musiqi Festivalının da uğurlu keçməsinə mühüm bir zəmindir. Onun hətta, konsertlərə vaxtından tez gələrək işin gedişatına şəxsən nəzarət etməsi, sona qədər əyləşib və konsertin sonunda Festivalın bədii rəhbəri ilə birlikdə səhnəyə çıxaraq musiqiçiləri təbrik edib, onlara Festivalın simvolunu və hədiyyələrini təqdim etməsi artıq bir ənənəyə çevrilib. Elxan Usubovun bir rəhbər olaraq belə müsbət keyfiyyətləri onun əməkdaşlarına və ümumiyyətlə, Şəki ziyalılarına, Şəki sakinlərinə əsil həyat dərsi və səmərəli iş göstəricisidir. Odur ki, keçirilən festivalların uğurlu olmasında bütün təşkilatçı qurumların o cümlədən, Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov başda olmaqla, humanitar şöbənin rəhbəri Zərinə Cavadova, Şəki Musiqi Kollecinin direktoru Sərdar Şərifov və digər şəxslərin müsbət və fəal iş ahəngi də mənim üçün unudulmaz təəssüratlarla yadda qaldı. Bu sadəcə təəssürat deyil, xalqa, vətənə, onun mədəniyyətinə necə xidmət etməyin əsl təzahürüdür. Bu mənada Azərbaycan Mədəniyyət Nazirliyinin də Festivalın işinə göstərdiyi qayğı və dəstək də çox təqdirəlayiqdir. Hər il olduğu kimi XII Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalına da müxtəlif ölkələrdən gələn qonaqların qarşılanmasında, eləcə də bizim musiqi kolletivlərinin Festivalda iştirakının təmin olunmasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşlarının da fəaliyyəti xüsusi qeyd olunmalıdır. Ümumiyyətlə, Mədəniyyət Nazirliyinin mədəniyyətimizin təbliği və inkişafı naminə göstərdiyi xidmətlər cənab Nazir Adil Kərimli başda olmaqla, həmin qurumun əməkdaşlarının yüksək vətənpərvərliyinin ifadəsidir. Elə "İpək yolu" Beynəlxalq Musiqi Festivalının yaranması da məhz böyük vətən sevgisinin təzahürüdür. Festivalın bədii rəhbəri, Azərbaycan bəstəkarlıq məktəbinin dünya təmsilçisi, Xalq artisti, professor Firəngiz Əlizadə bu Festivalı yaratmaq təşəbbüsü və ideyası ilə bizim və uzaq ölkələrin neçə-neçə yaradıcı insanlarının "İpək yolu"nda qarşılanmasına, dostlaşmasına vəsilə oldu. Bu Festival Azərbaycanla dünya xalqları arasında mədəniyyət və mənəviyyat körpüsünə çevrildi. Odur ki, "İpək yolu"nun ipək kimi yumşaq və uzaq yollarla müxtəlif ölkələrə yayılan təəssüratları ildən-ilə yenilənir və musiqi həyatımıza da yeni səhifələr bəxş edir.

Beləliklə, 3-7 iyul tarixlərində keçirilən XII Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalının bütün iştirakçılarına Azərbaycan Opera və Balet teatrının, F.Əmirov adına Əməkdar kollektiv mahnı və Rəqs ansamblının, Azərbaycan Respublikası Sərhəd Qoşunları Nümunəvi Orkestrinin kollektivinə, "Zəfər" muğam qrupuna, Festivala təşrif buyuran Çin, Qazax, Özbək və Türk musiqiçilərinə, Festivalın təşkilində iştirak edən Azərbaycanın Türksoydakı nümayəndəliyinə və Festivalı izləyən tamaşaçılara təşəkkür və minnətdarlıq hissi və daim xoş təəssüratlar arzusu ilə gələn görüşlərədək.

*Səadət Təhmirazqızı*
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru*
*Əməkdar mədəniyyət işçisi*

# Prezident fəaliyyətinin uğur hesabatı

## "Prezident İlham Əliyev bəyan etdi ki, altı ayın yekunları 2023-cü ili də uğurla başa vuracağımızı bir daha sübut edir"

Uğurlu idarəçiliyi təmin edən əsas faktorlardan biri hakimiyyətin öz fəaliyyəti və hədəflədiyi məsələlər barədə ölkə ictimaiyyətinə məlumatların, hesabatların verilməsidir. Bu mənada da iyulun 14-də keçirilən 6 ayın yekunlarına həsr olunan müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev çox mühüm məsələlərə toxundu. Dövlət başçısını toxunduğu, qeyd etdiyi hər bir məsələ bir daha göstərdi ki, Azərbaycan hakimiyyəti qarşıda dayanan bütün vəzifələri layiqincə yerinə yetirir, hər bir məsələdə dövlətin milli maraq və mənafeləri qətiyyətlə təmin edilir. Bu baxımdan da ötən ilin 6 aylıq siyasi və iqtisadi yekunları Azərbaycan Prezidentinin növbəti hesabatı idi. Belə ki, dövlət başçısı çıxışının əvvəlində bütün istiqamətlər üzrə vəzifələrin icra olunduğunu qeyd etdi: "İlin əvvəlində verdiyim tapşırıqların yerinə yetirilməsi ilə bağlı bir çox addımlar atılmışdır. İlin altı ayı arxada qalır. Müəyyən dərəcədə yekunlar haqqında danışmaq olar. Halbuki əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir. Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi. Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil. Ancaq qeyri-neft sektorumuz və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayemiz 6,5 faiz artıbdır və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır".



**MUXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədri**



Prezident İlham Əliyev müşavirədə çıxışında sosial, hərbi sahələrdə, eləcə də Qarabağ və Şərqi Zəngəzur regionlarında reallaşdırılan genişmiqyaslı bərpa-quruculuq layihələrinin reallaşdırılmasında iqtisadi potensialın mühüm rol oynadığını da diqqət çəkərək bildirmişdir: "Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzur regionuna təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi nəzərdə tutulur. Görülən bütün işlər Azərbaycanın hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir".

Azərbaycan Prezidenti çıxışında maliyyə vəziyyətinin böyük dərəcədə yaxşılaşdığını, bunun isə həyata keçirilən çoxşaxəli islahatların nəticəsində əldə edildiyini vurğulayıb. Məsələn, vergi-gömrük sahələrində aparılan yenilənmələr dayanıqlı iqtisadi inkişafın sürətləndirilməsinə və bunun nəticəsində maliyyə imkanlarının genişlənməsinə müsbət təsir göstərib. Bu isə, öz növbəsində, sosial sahədə dövlət siyasətinin daha uğurla reallaşdırılmasını təmin edib. Prezident İlham Əliyev müşavirədəki çıxışında son vaxtlar həyata keçirilən islahatların nəticəsi kimi, vergi orqanının büdcə daxilolmalarındakı rolunu yüksək qiymətləndirərək, bu qurumun şəffaf fəaliyyəti, habelə islahatlar hesabına büdcə daxilolmalarının böyük dərəcədə artdığını diqqətə çatdırıb. Dövlət başçısı, həmçinin vurğulayıb ki, daxil olan əlavə gəlirlər, ilk növbədə, sosial məsələlərin həllinə, insanların rifahının yaxşılaşdırılmasına yönəldilir. Bütün bunlarla bağlı ölkə rəhbəri qeyd etmişdir: "Maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi - bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq".

Dövlətimizin başçısı çıxışında Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlərin görüldüyünü də diqqətə çatdırdı. Bir daha şahid olduq ki, Azərbaycanın müdafiə və təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində saxlanılan əsas istiqamətlərdir. Güclü ordu bu gün dövlətlərin milli maraqlarının qorunmasında ən ciddi amillərdən biri kimi çıxış edir. Bu gün Azərbaycanın müdafiə və milli təhlükəsizlik xərcləri 6 milyard manatdan çoxdur. Bu, Ermənistanın dövlət büdcəsi xərclərinin 50 faizindən artıqdır. Təsadüfi deyil ki, biz regionun ən güclü ordusuna sahib ölkəsiyik. Bütün bunlar milli təhlükəsizliyimizin daha etibarlı qorunmasına imkan yaradır.

Azərbaycan Prezidenti müşavirədə çıxışında bu gün Azərbaycanın heç kimdən asılı olmadığını və bundan sonra da asılı olmayacağını bildirərək işğalçı Ermənistana və ona havadarlıq edənləri mesajını ünvanladı: "Bundan sonra da Ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir".

Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmadığını, hər bir təxribata layiqli cavab verildiyini söyləyən dövlətimizin başçısı qeyd edib: "Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni, bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən, ilk növbədə, bizim hərbi potensialımızdır".

Beləliklə, altı ayın yekunlarına həsr olunan müşavirə ölkəmizin uğurla inkişaf etdiyini, bütün istiqamətlər, sahələr üzrə qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə icra edilməsi ilə yanaşı, həm də Azərbaycan Prezidenti İlham Əliyevin uğur hesabatıdır. Dövlət başçısı bir daha bəyan etdi: "Ölkəmiz davamlı inkişafdadır, Azərbaycan hər istiqamət üzrə irəliləyir, islahatlar real nəticə verir, heç kim bizim iradəmizə təsir edə bilməz!".

# "Bəşəriyyəti sürətli qiymət artımı və ərzaq problemləri gözləyir"

**Xəbər verdiyimiz kimi, 17 iyul tarixində 2022-ci ildə Ukrayna limanlarından taxıl və ərzaq məhsullarının təhlükəsiz daşınması məqsədilə imzalanmış Qara Dəniz Taxıl Təşəbbüsünün vaxtı bitib və Rusiya sazişin müddətini uzatmaqdan imtina edib. Belə böyük bir qərarın dünya iqtisadiyyatı və qiymət artımına mənfi təsir edəcəyi mövsuzu isə şübhəsizdir.**



*POLİTOLOQ ŞƏRH ETDİ*



Politoloq Anar Əliyev bu barədə SİA-ya açıqlamasında bunları deyib: "Bu gün Türkiyənin vasitəçiliyi və BMT-nin iştirakı ilə Rusiya-Ukrayna arasında əldə olunmuş taxıl sazişinin vaxtı bitib və çox təəssüf ki, mövcud şərtlər daxilində Rusiya təhlükəsiz taxıl dəhlizi şərtlərinə əməl etməklə bağlı öhdəliklərini bundan sonra uzatmaq fikrində olmadığını bəyan edib. Əsaslandırmada isə Rusiya ilə bağlı proseslərə təsir edən amillər aradan qalxmayınca sazişin uzadılmayacağını, bu amillər aradan qalxan kimi sazişin yenidən öz qüvvəsinə qayıdacağı bəyan edilib. Ötən ilin avqust ayından başlayan və təxminən 33 milyon tona yaxın taxılın, dənli bitkilərin dünya bazarlarına çıxarılmasını təmin edən, bununla da dünyada beynəlxalq ictimaiyyətin ayrı-ayrı dövlətlərin üzləşə biləcəyi ərzaq probleminə ciddi təsir edə biləcək saziş fəaliyyətini dayandırıb. Təəssüf ki, bu müddət ərzində 33 milyon tona yaxın daşınan taxıl və dənli bitkilərin çox böyük qismi - təxminən 40%-i taxıl və dənli bitkilərlə bağlı ciddi problemlə üzləşməyən Avropa bazarlarına, ciddi ərzaq problemi yaşayan Afrika qitəsinə isə cəmi 12%-i daşınıb. Əslində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın birbaşa təşəbbüsü və vasitəçiliyi ilə əldə olunmuş bu razılaşmanın başlıca mahiyyəti dünya bazarında ərzaq qiymətlərinin və taxıl məhsullarının qiymətlərinin artımının qarşısını almaq, eyni zamanda bir sıra bölgələrdə, xüsusilə Afrika kimi inkişafdan geri qalmış yerlərdə insanların qida təhlükəsizliyi, ərzaq problemləri ilə üzləşməməsi üçün belə razılaşma əldə olunub. Lakin razılaşmanın mühüm şərtlərinə elə ilkin dövrdən Avropa dövlətləri - güclü dövlətlər pozmağa çalışırdılar və çox təəssüf ki, daşınan yüklərin 3-də 2-indən daha çoxu, təxminən 70%-i yalnız Avropa və Asiyanın inkişaf etmiş ölkələrinə daşındı. Bunu əsas gətirərək Rusiya müxtəlif vaxtlarda təhlükəsiz Qara dəniz dəhlizinin yaradılmasıyla bağlı taxıl sazişinin müddətinin uzadılmaması və ya qüvvədən salınması ilə bağlı fikirlər səsləndirirdi. Lakin Türkiyənin birbaşa təsiri, Rəcəb Tayyib Ərdoğanın Rusiya prezidenti ilə şəxsi razılaşmalarının nəticəsi olaraq bu saziş 17 iyul tarixinə qədər qüvvədə qaldı.

Son dövrlər baş verən hadisələr, eyni zamanda bu gün səhər tezdən Krım körpüsünə Ukrayna xüsusi xidmət orqanları tərəfindən edilən hücum Rusiyanın daha da koordinal addım atması ilə nəticələndi. Düzdür, Rusiya tərəfi bu mövqenin bir neçə gün əvvəl də Rusiya prezidenti Vladimir Putin tərəfindən bəyan edildiyini və sazişin uzadılmayacağı haqda qərarın öncədən qəbul olunduğunu bildirsə də, hesab edirəm ki, bu gün səhər törədilən hadisə bu qərarın verilməsində yekun mövqeni xüsusilə möhkəmləndirmiş oldu. Hesab edirəm ki, saziş yenidən bərpa edilməzsə, təhlükəsiz dəhliz təmin edilməzsə bu dünya bazarında ərzaq problemlərinə, xüsusilə də taxıl və taxıl məhsullarından hazırlanan qidaların qiymətinə ciddi şəkildə təsir edəcək. Artıq Avropa birjalarında taxılın qiymətinin 2-3%-ə qədər artması ilə bağlı informasiyalar yayılmaqdadır. Bütün bunlar onu göstərir ki, bəşəriyyəti sürətli qiymət artımı və ərzaq problemləri gözləyir. Bunun qarşısını almaq üçün təbii ki, böyük güclər, Rusiya-Ukrayna münasibətlərinin gərginləşməsində və münaqişə mühitinin davam etməsində maraqlı olan güclər fəaliyyətə keçməlidir. Hesab edirəm ki, məhz ABŞ başda olmaqla kollektiv Qərbin uzun sürən münaqişənin bitməsi istiqamətində real praktik addımların atılması həm bölgələrə sülhün gəlməsində, həm də bütövlükdə bəşəriyyətin üzləşə biləcəyi ciddi qiymət artımları və ərzaq problemlərini önləmiş ola bilər.

Hesab edirəm ki, buna yalnız Rusiya-Ukrayna arasındakı münaqişə müstəvisində baxmaq olmaz. Bu, artıq qlobal ərzaq təhlükəsizliyi üçün çox ciddi təhdidlər formalaşdırır. Türkiyənin ciddi cəhdlərinə baxmayaraq, bir sıra kənar güclər, eləcə də Qərb dairələri Rusiya və Ukrayna arasındakı münasibətlərin tənzimlənməsi, münaqişənin bitməsi, bununla paralel şəkildə ərzaq təhlükəsizliyi ilə bağlı təhlükə və təhdidlərin aradan qalxması istiqamətindəki cəhdlərin gözdən salmağa, reallaşmasına imkan verməməyə çalışırlar. Bu istiqamətdə addımlar dayandırılmalıdır, Türkiyənin sərgilədiyi mövqeyə dəstək ifadə olunmalı, Rusiya-Ukrayna arasındakı münasibətlərin masa arxasında müzakirəsi istiqamətində çalışılmalı, buna nail olunmalıdır".

***Aysel Naibli***

# Cırtdan ailələrin nəhəng problemləri



***Azərbaycanda hər 10 ildən bir əhalinin siyahıyaalınması həyata keçirilir. Sonuncu dəfə 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən, Azərbaycanda 6 və daha çox uşağı olan 16169 ailə mövcuddur. Çoxuşaqlı ailələrdən 7169-u şəhər yerlərində, 9000-i isə kənd yerlərində yaşayır. Hazırda Azərbaycanda 6 uşaqlı - 9332, 7 uşaqlı - 3565, 8 uşaqlı - 1748, 9 və çox uşaqlı - 1524 ailə var.***

## Ailələr 2 uşaqdan artıq istəmir

Azərbaycanda ailələrin tək və ya 2 uşaq problemi barədə çox yox, cəmi 10 il əvvəl danışan olsaydı, çoxumuza gülməli görünərdi. Əksəriyyətimiz ən az 3 uşağı olan ailədə böyümüşük. Aramızda 9-10 uşaqlı ailənin övladı olanlar da çoxdur. İllər və zaman bir çox şeylə bərabər ailələrin çoxövladlılıq məsələsini də dəyişdi. İndi 3 uşağı olan ailəyə "qəhrəman ailə" kimi baxırlar, 3-cü övladını doğan qadına möcüzə görmüş kimi zillənən baxışlar, 3-4 övladı ilə parka gəzintiyə çıxan ataya dikilən təəccüb dolu gözlər müasir ailə modelində ən çox 2 uşağa yer verildiyini bir daha təsdiqləyir.

Dünya təcrübəsi tək övladı olan ailələri "cırtdan ailə" adlandırır. Bu problem Avropa ölkələrinin ən çox yayılmış, aktual milli-sosial problemlərindən biridir. Elə bizim ölkəmizdə də son 2-3 ilin ən ciddi sosial problemlərindən biri, məhz ailə fərdlərinin minimum saya enməsi hesab edilir.

"Cırtdan ailə"lər, adətən, bir tək oğlan uşağı ilə kifayətlənir, Avropa ölkələrində bu, bir qız övladı ilə də əvəzlənə bilir. Müsəlman toplumlarında qız övlad nəsil davamçısı hesab edilmədiyindən mütləq oğlan övlada sahib olmaq istəyən valideynlər könüllü olmasa da, "cırtdan ailə" modelini böyütməyə qərar verirlər.

Bəzən isə bunu istəməyən ailələr birinci abortun təhlükəli olduğunu nəzərə almadan USM-də qız övladının olduğunu gördükdən sonra aborta əl atır. Məqsəd sadədir: "Bir uşaq olsun, oğlan olsun, nəsil davam etsin", "bir olsun, amma yaxşı olsun, bütün imkanları olsun", "bir olsun həm daha yaxşı təhsil alsın, həm ehtiyaclarını daha yaxşı təmin edək, qidalanması, geyimi keyfiyyətli olsun".

Müşahidələr göstərir ki, cavan valideynlər çoxuşaqlı olmaqdan qorxurlar, qadınlar karyeralarını qurmaq, işlərində yüksəlmək istəyirlər, onlar uşaq böyütməyin çətinliklərinə qatlanmaq, körpəyə baxmaq üçün evdə oturmaq istəmirlər. Bəzən də doğuşa hazır olmurlar, ilk doğuş ağır keçir, ana qorxub stress keçirir və bir daha doğmaq istəmir.

## Uşaq boşanmağa mane ola bilmir

Düzdür, hazırda Azərbaycan öz klassik ailə modelini - ikiuşaqlılıq prinsipini də qoruyur, amma bu təkuşaqlı ailələrin çoxalmasına maneə deyil. İkiuşaqlıların sayı çox olsa da təkuşaqlı ailələrə yaxın saydadır, bu da təbii ki, nəsil şəcərəsinin şaxələnməsinə maneə törədir. Əvvəl nəsil 5-6 qoldan böyüyürdüsə indi yalnız bir uşaqdan böyüyür.

Boşanma statistikasında da təkuşaqlı ailələrin sayı sürətlə artır. Xüsusilə də, son 24-25 ildə təkuşaqlı ailələrdə boşanmaların sayı rekord həddə çatıb. 2-3 uşaqlı ailədə boşanmamaq üçün bütün yollara əl atılır, tərəflər uzlaşır, bir-birinə güzəştə gedirsə təkuşaqlı ailələrdə uzlaşma ehtimalı minimumdur. Tərəflərdən hansı uşağa himayədarlıq edəcəksə bunu o qədər də ağır iş hesab eləmir - "bir uşağa baxmağa nə var ki..." düşüncəsi...



2022-ci ildə 15 983 boşanma qeydə alınıb ki, onlardan 6421-i uşaqsız ailə olub. Ötən il qeydə alınmış boşanmalardan 9562-i 18 yaşadək uşaqları olan ailələr arasında qeydə alınıb. Onlardan 4 154 ailə 1 uşaqlı, 5 408 ailə isə 2 və daha çox uşaqlı olub ki, onlarda uşaqların cəmi sayı 12 180 olub.







## Sosial müavinət ailəyə dəstəkdir

Azərbaycanda uşaqlara verilən sosial müavinətlərin məbləğləri hazırda belədir: valideyninin itirməyə görə sosial müavinətin məbləği 120 manat, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə sosial müavinətin məbləği hər uşaq üçün 100 manat, uşağın anadan olmasına görə birdəfəlik sosial müavinətin məbləği isə 500 manat müəyyənləşib. Mövcud qanunvericiliyə görə çoxuşaqlı ailə 5-dən artıq uşağı olan ailələr hesab edilir və dövlət bu halda onlara və uşaqların himayədarına hər uşağa görə 70 manat sosial müavinət ödəyir.



Qonşu ölkələrdə ailələri çoxuşaqlılığa təşviq etmək üçün bir sıra sosial layihələr həyata keçirilir. İndi Rusiyada hamilə kimi qeydiyyata düşən qadına hamiləliyin 6-cı həftəsindən doğuşadək aylıq 6.350 rubl (140 AZN) pul ödənilir. Doğandan sonra uşaq 3 yaşına çatanadək ayda 11.300 rubl (250 AZN), 3-dən 7 yaşına kimi hər ay 8.475 rubl (187 AZN), 16 yaşına kimi isə ayda 5.650 rubl (125 AZN) uşaqpulu ödənilir. Bundan əlavə doğulan hər vətəndaş üçün dövlət 450. 000 rubl (10.000 AZN) dəyərində sertifikat verir, bu məbləği valideyn əmlaka yatıra bilər, ipoteka ilə ev alanda ilkin ödəniş kimi verə bilər. 3-cü uşaq üçün isə bəzi bölgələrdə yaşayış evi, bəzi bölgələrdə torpaq sahəsi verilir.

Gürcüstanda sosial cəhətdən həssas uşaqlar üçün dövlət müavinəti 150 LARİ-dir (100 AZN). Bu müavinət 215 mindən çox uşaq üçün ayrılır. Türkiyədə birinci uşaq 300 TL(25 AZN), ikinci uşaq üçün 400 TL(32 AZN), üçüncü uşaq üçün isə 600 TL (50 AZN) verilir. Qazaxıstanda 18 yaşa qədər uşaqlar dövlətdən ayda 20 min tengə (76 AZN) ödəniş alır. Özbəkistanda isə 2 yaşa qədər uşaqlara ayda 1 milyon som (147 AZN) ödənilir. İranda hər yeni doğulan uşaq üçün açılan bank hesabına dövlət 1000 dollar pul yatırır, hər ay bu məbləğin üzərinə 100 dollar əlavə edir. Uşaq 18 yaşına çatanadək yığılan vəsait özünə ödənilir.

Almaniya Avropada ən çox uşaq pulu ödəyən ölkələrdən biridir. İlk iki uşağa aylıq 219 avro, üçüncü uşağa 225 avro, dördüncü və sonrakı uşağa 250 avro aylıq müavinət verilir. Bəzi şərtlərə əməl edilsə valideynlərə vergidən azad uşaq müavinəti də verilə bilər. 2021-ci ildən etibarən bu müavinət evli cütlük üçün hər uşağa görə birdəfəlik 5,460 avro və ya uşağını tək böyüdən valideyn üçün birdəfəlik 4,095 avro müəyyən edilib.

Qeyd etdiyimiz kimi, Rusiya, Ukrayna, Fransa, İsveç, Finlandiya, Çexiya kimi ölkələrdə çoxuşaqlı ailələrə təminatlarla bağlı müvafiq qanunlar qəbul olunub, ailələri daha çox uşaq dünyaya gətirməyə təşviq edirlər. Bizim - mənim, sənin, onun məcburən kiçiltdiyi, fərdlərini azaltdığı ailə modelinin zədələdiyi milli şəcərəni çoxuşaqlı ailələr şaxələndirəcək. Onlara lazım gəlsə dövlət dəstəyi, lazım gəlsə ödənişsiz ali təhsil imkanları yaratmaq lazımdır.

***Lalə Mehralı***

# İrəvanın dəyişilməyən siyasəti: milli, dini və məzhəb ayrı-seçkiliyi

## Milli Təhlükəsizlik Xidməti hökumətə vaxtilə faşist Almaniyasının tətbiq etdiyi qanun layihəsini təqdim edib




Monoetnik Ermənistanda dini ayrı-seçkilik faktları bu gün də öz mövcudluğunu qoruyub saxlamaqdadır. Belə ki, özlərini "Erməni Apostol Kilsəsinin mənsubları" adlandıran monofizit ermənilər nəinki digər dinlərə, hətta xristianlığın digər qollarına qarşı dözümsüzlük nümayiş etdirirlər və maraqlıdır ki, bu kimi faktlar yalnız erməni cəmiyyətinə xas olan ənənə deyil, həmçinin dövlət səviyyəsində yürüdülən siyasətin tərkib hissəsidir. Üstəlik, əgər hər hansı bir erməni, misal üçün, Erməni Apostol Kilsəsini tanımayaraq digər xristian qoluna, həmçinin, fərqli dinə inanırsa, bu amil də ölkədə mənfi cəhət kimi qiymətləndirilir. Hətta bu gün Ermənistanda etnik yezidlərə qarşı da hansı münasibətin nümayiş etdirilməsi göz önündədir. Əbəs deyil ki, Ermənistanda zaman-zaman yezid qiyamları baş qaldırmaqdadır. Müxtəlif vaxtlarda isə Rusiyada və s. ölkələrdə yaşayan yezidlər Ermənistanda onlara qarşı yürüdülən diskriminasiya siyasətinə qarşı etiraz aksiyaları keçirirlər.

### Ermənistanın MTX xarici ölkələrdə yaşayan erməni diasporunun təmsilçilərinin ölkəyə daxil olmaları, habelə onların etnik indentifikasiyası prosesinin sərtləşdirilməsi tələbi ilə çıxış edib

Sputnik-Armeniyanın yazdığına görə, Ermənistanın Milli Təhlükəsilik Xidməti (MTX) xarici ölkələrdə yaşayan erməni diasporunun təmsilçilərinin ölkəyə daxil olmaları, habelə onların etnik indentifikasiyası prosesinin sərtləşdirilməsi tələbi ilə çıxış edib. Maraqlıdır ki, Ermənistan MTX-i bunu rəsmiləşdirərək bildirir - vətəndaşlıq alan etnik ermənilər bir sıra güzəştlər əldə edirlər ki, sonradan həmin güzəşt və istisnalar sui-istifadələr ilə müşahidə olunur. "Ermənistan MTX Ermənistan vətəndaşlığı alanlara qarşı qanunları sərtləşdirməyi təklif edir", - deyə rəsmi məlumatda bildirilir, üstəlik, bunun üçün yeni layihə təqdim edilir. Eyni zamanda, digər millətlərə məxsus insanların vətəndaş olmaları üçün də ayrıca təkliflər irəli sürülüb. Misal üçün, bildirilir ki, digər etniklərin Ermənistan respublikasında yaşamaları və vətəndaşlıq almaları üçün hüquqları olsa da, onlar müəyyən şərtlər əsasında qanunları qəbul etməlidirlər. Erməni olmayan belə şəxslər ən azı üç il Ermənistanda yaşamalı, məişət səviyyəsində erməni dilini bilməli, həmçinin, ölkə konstitusiyası haqqında müəyyən bilgilərə sahib olmalıdırlar. Bu tələbi haradasa anlamaq olar, amma...

### Ermənistan MTX: "Etnik identifikasiya ilə bağlı problemlər yaşanır, belə ki, mütəmadi olaraq bu aspekt heç yerdə sənədləşdirilərək fiksasiya edilmir"

Amma erməni təhlükəsizlik xidmətinin xaricdən repatriasiya olan digər ermənilər qarşısında qoyduqları şərtlər diqqət çəkir. Məsələn, tələb olunur ki, qanun çərçivəsində etnik ermənilər üçün təqdim edilən güzəştlərə rəğmən, onların ölkənin ictimai-siyasi həyatına qoşulmalarından əvvəl genləri indentifikasiya olunmalıdır. "Araşdırmalar göstərir ki, Ermənistan vətəndaşlığı üçün müraciət edən ermənilər heç vaxt Ermənistanda olmayıblar, yaxud 4-5 ildən bir, ya da daha gec ölkəni ziyarət ediblər... Pasportlar yalnız başqa ölkələri ziyarət etmək üçün istifadə olunur. Etnik identifikasiya ilə bağlı problemlər yaşanır, belə ki, mütəmadi olaraq bu aspekt heç yerdə sənədləşdirilərək fiksasiya edilmir. Həmçinin, Erməni Apostol Kilsəsində xaç suyuna çəkilmə ilə bağlı sənədlərin saxtalaşdırılması hallarına rast gəlinir və bilinmir ki, həmin şəxs Erməni Apostol Kilsəsində, Erməni Katolik Kilsəsində, yaxud Erməni Yevangiliya Kilsəsində xaç suyuna çəkilib...", - deyə məlumatda bildirilir.

### Belə təhlükəli ideologiyaların qarşısı isə zamanında alınmalıdır, əks halda regionumuzda növbəti fəsadların yaşanacağını da istisna etmək olmaz

Göründüyü kimi, Ermənistanın Milli Təhlükəsizlik Xidməti bu kimi ayrı-seçkiliklər kontekstində açıq-aşkar faşist Almaniyasında tətbiq edilən qanunlar əsasında layihələr təqdim edir. İnsanlar və onların dini baxışlarında fərqlər qoyur, üstəlik, genetik mənsubiyyət məsələlərində də irqi yanaşma nümayiş etdirir. Söz yox ki, bu kimi layihələrin rəsmi qaydada irəli sürülməsi və hökumət tərəfindən qəbul edilməsi bir daha sübut edir ki, Ermənistanda hansı siyasi qolun iqtidarda olmasına rəğmən, dini və irqi, habelə milli mənsubiyyət ayrı-seçkiliyi öz mövcudluğunu qoruyub saxlayır və bu kimi, əslində, regiona ciddi təhlükələr vəd edir. Belə təhlükəli ideologiyaların qarşısı isə zamanında alınmalıdır, əks halda regionumuzda növbəti fəsadların yaşanacağını da istisna etmək olmaz.

***Afət Tahirqızı***

## "Azərbaycanın bunu qəbul etməsi mümkünsüzdür"

"Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçirilən son görüşündə ciddi irəliləyiş sayılacaq addımlar atılmadı". Bunu "Alyans" strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açıqlamasında deyib.



Onun sözlərinə görə, yenə eyni məsələlər müzakirə olundu. Yenə kommunikasiyaların açılması işlərinin aparılması, delimitasiya prosesinin sürətləndirilməsi, əsirlərin qaytarılması, Bakı-Xankəndi danışıqlarının bərpa olunması zərurəti bir daha təkrar olundu. Yenilik ondan ibarət oldu ki, kommunikasiyaların açılmasına Avropa Birliyinin maliyyə yardımının mümkünlüyü söyləndi, Bakı ilə Xankəndi arasında aparılan danışıqları təşkil etmək təklif olundu və Qarabağda yaşayan ermənilərə Ağdam vasitəsilə humanitar yardımın çatdırılması zəruri sayıldı. Sonuncu təklif ermənilər tərəfindən kəskin narazılıqla qarşılandı və erməni liderlərindən biri, keçmiş "diplomat" David Babayan Şarl Mişeli bu təklifə görə təhqir etməkdən belə çəkinmədi.

Əslində, Brüssel görüşünün bu cür başa çatacağını əvvəlcədən proqnozlaşdırmaq o qədər də çətin deyildi. Prosesi diqqətlə izləyən hər kəsə məlumdur ki, ABŞ və Avropa Birliyi tərəfindən Ermənistan tərəfinə zəruri təzyiq göstərib "sülh sazişi"nin yaxın günlərdə imzalanmasına nail olmaq o qədər də çətin deyil. Çünki əsas fikir ayrılıqları ermənilərin ortaya atdıqları iki təkliflə əlaqədardır. Bunlardan biri və əsas çətinlik yaradanı Qarabağ erməniləri ilə danışıqlara beynəlxalq mexanizmlərin qoşulması təklifidir ki, Azərbaycanın bunu qəbul etməsi mümkünsüzdür. Alen Simonyanın da etiraf etdiyi kimi sazişin imzalanması önündə əsas maneə budur.

İkinci problem yaradan məsələ ermənilərin delimitasiya prosesini 1975-ci il xəritəsi əsasında aparmaqda təkid etmələridir. Soçidə 2021-ci ilin sonlarında imzalanan üçtərəfli bəyanata görə ermənilərin bu israrı tamamilə yersizdir və sülh danışıqlarını uzatmağa yönəlmiş addımdır. Görünür, ABŞ və AB hələlik N.Paşinyanın belə bir sənəd imzalamaq iradəsinin olmadığını anlayırlar və ona bir neçə ay əlavə vaxt vermək istəyirlər. Ancaq sülh prosesinin növbəti ilə keçməsi yolverilməzdir və sülh müqaviləsinin bu il imzalanması üçün qərb mövqeyini mütləq sərtləşdirməlidir.

***GÜLYANƏ***

# Qazdan ayıq olmasaq

*Evlərdə, obyektlərdə qaz təhlükəsizliyinin təmin olunması üçün yoxlamalara başlanır: nəyi, niyə və necə yoxlayacaqlar?*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*




Əhalinin təbii qaz təchizatı və bu sahədə mövcud olan problemlərin həlli üçün bu istiqamətdə ciddi islahatlara başlanır. Artıq Azəriqaz İstehsalat Birliyi tərəfindən evlərdə, mənzillərdə, obyektlərdə qaz sisteminin və cihazların yoxlanması prosesinə start verilir. Məqsəd qaz sistemində nasazlıqların aşkar edilərək aradan qaldırılması və abonentlərin dəm qazından və ya qaz partlayışı nəticəsində həlak olması hallarını aradan qaldırmaqdır.

Bununla bağlı çoxdandır ki, mediada və sosial şəbəkələrdə Azəriqaz tərəfindən məlumat verilir, İB-nin rəhbər şəxsləri tərəfindən prosesin məqsədi və necə həyata keçiriləcəyi izah edilir. Lakin hələ də bir çox vətəndaşlar bununla bağlı narahatlıq ifadə edir, yoxlamanın keçirilməsinə qarşı olduqlarını deyirlər. Buna görə də, çalışacağıq ki, bu yazıda yoxlamaların məqsədi, hansı formada həyata keçiriləcəyi haqda ətraflı məlumat verək.

Son illərdə baş vermiş qaz partlayışlarında onlarla vətəndaşımız dünyasını dəyişib, neçə evlər, binalar dağılıb. Araşdırmalar göstərir ki, bunun səbəbi qaz sistemlərində baş verən sızmalar, qeyri-standart qaz cihazlarından istifadə və qaz qurğuları ilə davranış qaydalarının kobud pozulmasıdır. Bir çox vətəndaşlarımız mənzillərində, evlərində mətbəxin yerini dəyişərək onu eyvana və ya evin digər hissəsinə keçirdikdə bu işi kustar şəkildə gördürürlər, halbuki bu işlə məşğul olan peşəkar şirkətlər- ixtisaslaşmış lisenziyalı podratçı təşkilatlar var.

Problem ondadır ki, bu işi onlara gördürmək, adi ustalara etdirməkdən bir qədər baha başa gəlir və vətəndaşlar da artıq xərc çəkmək istəmirlər. Nəticədə 100-200 manata qənaət ağır faciələrə səbəb olur. Həmçinin, digər hallar da var ki, partlayışlara, sızmalara səbəb olur- məsələn, uzun illər istifadə olunan boruların, kranların çürüməsi, sıradan çıxması və buna fikir verilməməsi.

Bundan başqa, dəm qazından zəhərlənmələr də hər il onlarla vətəndaşımızın həyatına son qoyur. Bunun da səbəbi hamam otaqlarında, mətbəxdə və qaz cihazlarının qoyulduğu digər otaqlarda hava çıxışlarının olmaması və ya tutulması, mənzillərdə qaz detektorlarının qoyulmamasıdır. Əksər abonentlər hava çıxışlarını və qaz borularını yoxlatmadığından, qaz sistemi ilə təlimata uyğun davranmadığından faciələr baş verir. Məsələn, bir çox mənzillərdə, evlərdə su qızdırıcı qaz cihazları hamamda quraşdırılır, amma hamamın hava çıxışı yoxdur, varsa belə, tutulub, üstəlik qapıda kiçik yarıqlar qoyulmayıb. Nəticədə, heç iyi-qoxusu olmayan dəm qazından zəhərlənmələr və ölümlər baş verir.

Əvvəllər Azəriqaz əməkdaşlarının mənzillərdə qaz sisteminin təhlükəsizliyini yoxlamaq hüquqi var idi, lakin son dövrdə bu səlahiyyət Azəriqazdan alınmış və əməkdaşlara yoxlama üçün mənzillərə, evlərə, obyektlərə girmək qadağan edilmişdi, yalnız sayğaca baxış keçirə bilirdilər. Bu ildən etibarən ”Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Prezident Fərmanına uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarı ilə bu səlahiyyət yenidən Azəriqaza qaytarılıb.

Abonentlərə əvvəlcədən yoxlamanın keçiriləcəyi tarix haqda məlumat veriləcək. Abonent yoxlamanın keçirilməsini təmin etməlidir. Əgər üzrlü səbəbdən buna imkan yoxdursa, o halda abonentə 5 iş günü vaxt verilir və bu müddətdə də yoxlama təmin edilmədikdə həmin evin, mənzilin və ya obyektin qaz təchizatı dayandırılır. Yalnız yoxlama keçirildikdən sonra bərpa olunur. Əgər vətəndaş üzlü səbəbdən mənzildə, evdə yaşamırsa, onda həmin abonentə 1 ayadək vaxt verilir və bu müddətdə yoxlamanın keçirilməsi təmin edilməlidir.

Yoxlama zamanı sayğacdan başlayaraq bütün qaz sistemi yoxlanacaq. Sayğacın normal işlədiyi, qaz xətlərində sızmaların olmadığı, qaz cihazlarının standartlara uyğun olduğu, hamam və mətbəxdə hava çıxışlarının təmiz olduğu aşkar olunarsa, akt tərtib olunur və abonentə xidmət davam etdirilir. Əgər hər hansı bir nöqsan aşkarlanarsa, bunun aradan qaldırılması üçün abonentə 1 ay vaxt veriləcək. Bu müddətdə nöqsanlar aradan qaldırılmalı və təkrar yoxlama üçün qaz istismar idarəsinə müraciət edilməlidir. Əgər yoxlama zamanı təhlükəli vəziyyət aşkar olunarsa, bu halda qaz təchizatı dərhal kəsiləcək və problem aradan qaldırıldıqdan sonra bərpa olunacaq.

Yeni şərtlərə görə, mənzillərdə və ya obyektlərdə 2 detektor olmalıdır- biri mətbəxdə qaz sızmasını aşkarlayan metanahəssas cihaz, digəri isə vanna otağında dəm qazını aşkarlayan cihaz. Bu cihazlar işlək vəziyyətdə olmalı və təhlükə zamanı səs və işıq siqnalları verməklə dərhal ümumi qaz klapanını bağlamalıdır.

Texniki müayinə ödənişsiz həyata keçirilir, lakin aşkar olunan nöqsanların aradan qaldırılması, qaz detektorlarının quraşdırılması xərcləri abonent tərəfindən ödənilməlidir. Detektorlar texnika mağazalarında bazarda 20-30 manatdan başlayaraq satılır, hər bir abonent özünün və digərlərinin təhlükəsizliyi üçün onları alıb quraşdırmağa borcludur. Bəzi vətəndaşlarımız maddi imkanları çox aşağı olduğundan bu cihazları ala bilməyə bilər, bu halda yardım üçün müvafiq dövlət orqanlarına və fondlara müraciət edə bilər.

Qaz təsərrüfatında yeniliklər təkcə bunlarla bitmir. Bu ildən etibarən yeni qaz sayğaclarının quraşdırılmasına başlanır. Məlum olduğu kimi, indiyədək fərqli dövrlərdə fərqli qaz sayğacları tətbiq olunub və bu da qarışıqlıq yaradır. Üstəlik, bu sayğacların təmiri, detallarının xaricdən gətirilməsi baha başa gəlir. Bəzi sayğaclar tez-tez bloka düşür və bu da narazılıq yaradır. Bu problemlərin həlli üçün sayğacların ölkədə istehsalı təşkil olunub. Almaniyanın nüfuzlu firmalarından biri ilə bağlanan müqavilə əsasında Gəncə Cihazqayırma Zavodunda mexaniki tipli məişət qaz sayğaclarının istehsalına başlanıb. Artıq bu sayğaclar sınaqdan keçirilib və normal işlədiyi laboratoriya şəraitində təsbit olunub.

Azəriqazla zavod arasında bağlanmış müqaviləyə uyğun olaraq artıq 2 mindən artıq sayğacın alınıb və onların yeni binalarda quraşdırılmasına başlanıb. Ümumilikdə, ilkin etapda 400 mindən artıq sayğacın istehsalı nəzərdə tutulur. Lakin Azəriqazın 2,5 milyondan çox abonenti olduğunu nəzərə alsaq, istehsalın sonrakı mərhələdə daha çox olacağını güman etmək olar. Bütün ölkədə vahid qaz sayğacı tətbiq olunacaq, onların təmiri, ehtiyat hissələri də daha asan, daha ucuz başa gələcək. Bu sayğaclar mexaniki tiplidir və sonradan ödənişlidir. Yəni, abonentlər indiki smart sayğaclar üçün əvvəlcədən kart balansına pul yükləməli olurdular, yəni hələ işlətmədikləri qazın pulunu əvvəldən ödəmiş olurdular. Yeni sayğaclarda isə abonent ay ərzində işlətdiyi qazın pulunu sonda ödəyəcək.

Təcrübə göstərir ki mexaniki sayğaclar smart sayğaclardan daha etibarlı, daha dözümlüdür. Yeni sayğaclar mexaniki olmasına baxmayaraq, onların üzərinə əlavə smart cihaz quraşdırılacaq ki, bu da sayğacın məsafədən idarə olunmasına imkan verəcək. Məsələn, hər hansı bir təhlükə zamanı məsafədən sayğaca komanda verərək qaz verilişinin dayanmasını təmin etmək mümkün olacaq.

Bildirməliyik ki, sayğacların dəyişdirilməsi ucdantutma bütün ölkə üzrə aparılmayacaq. Yalnız yeni evlərdə və mənzillərdə, həmçinin istifadə vaxtı keçmiş və xarab olmuş sayğaclar dəyişdirilərkən bu sayğaclar quraşdırılacaq. Məlum olduğu kimi, əhali kateqoriyası üçün sayğacların 5 ildən, kommersiya tipli sayğacların isə 3 ildən bir yoxlanması və normal işləmədiyi halda dəyişdirilməsi təmin olunur. Tədricən- 5 il ərzində bütün ölkədə vahid sayğacların tətbiqi nəzərdə tutulur.

Ümumiyyətlə, əhali abonentləri üçün bütün sayğaclar pulsuz quraşdırılır və heç bir qaz işçisi sizdən sayğac üçün pul tələb edə bilməz. Əgər sayğac hər hansı səbəbdən düzgün işləmirsə və normadan artıq pul yazırsa, o halda qaz istismar idarələrinə məlumat verilməlidir. Sayğac abonentin və onun arzu etdiyi şəxsin iştirakı ilə laboratoriyada yoxlanmalı, düzgün işləmədiyi aşkarlanarsa abonent pulsuz olaraq yeni sayğacla təmin olunmalıdır.

Qeyd edək ki, ölkədə yaşayış məntəqələrinin qazlaşdırılması prosesi artan xətlə davam edir. Keçən il 110 yaşayış məntəqəsi qazlaşdırılmışdısa, bu il 150-yə yaxın məntəqənin qazlaşdırılacağı nəzərdə tutulub. Onlardan 60-ı ucqar kəndlərdir. Bu ilki plana əsasən daha çox cənub-şərq zonasındakı kəndlərin qazlaşdırılması nəzərdə tutulub. Sonrakı illərdə digər zonalardakı dağ kəndlərinin qazlaşdırılacağı nəzərdə tutulur. Bu da əhalinin həyat şəraitinin yaxşılaşmasından əlavə, həm də meşələrin yanacaq məqsədilə qırılmasının da qarşısını alır.

Evlərin qazlaşdırılması plana uyğun təmin olunur. Yeni ev tikilərkən yaxınlıqda ana qaz xəttindən evə qaz çəkilməsi üçün texniki şərt alınmalıdır- layihəyə uyğun olaraq podratçı şirkətlə müqavilə əsasında evə qaz xətti çəkilir, daha sonra Azəriqaz əməkdaşları tərəfindən qaz sistemi yoxlanır, əgər hər şey təlimata uyğun edilibsə akt bağlanır, abonent sayğacla təmin olunur, evə qaz verilişinə başlanır.

Bu prosedur zamanı Azəriqaz vətəndaşdan heç bir ödəniş tələb etmir, abonent yalnız müqavilə əsasında razılaşdırılmış qiymət üzrə evə qaz xəttinin çəkilməsi üçün podratçı şirkətin haqqını ödəyir. Qaz çəkilişi üçün lisenziya almış podratçı şirkətlərin siyahısı Azəriqaz-ın internet saytında yerləşdirilib. Lakin həmin şirkətlər Azəriqaz-a tabe deyillər, müstəqil şirkətlərdir. Belə şirkətlərin sayı 100-ə yaxındır. Abonent istədiyi şirkəti sərbəst seçə bilər.

Onu da qeyd edək ki, təbii qaz təchizatı ilə bağlı hər hansı bir şikayət və ya müraciətlər üçün qaynar xətt telefonları (104, 185) 24 saat açıqdır. Azəriqaz İB-nin baş direktoru Ruslan Əliyev, həmçinin baş direktorun müavinləri və şöbə rəisləri- Eldəniz Vəliyev, İbrahim Kərbalayev, İlkin Behbudov, Rasim Əhmədov, Xalidə Şimşək, Rəşad Cavadov, Vüqar Səmədov, Rövşən Məhyəddinov, Fərid Mirzəyev, Teymur Cəfərov və digərləri mütamadi olaraq televiziya və radio proqramlarında, Azəriqaz-ın sosialı şəbəkələrdəki səhifələri üzərindən canlı yayımlarda və ”Açıq qapı” aksiyalarında bütün sualları cavablandırır, abonentlərin şikayətlərinin həlli üçün çalışırlar. Bundan başqa, Azəriqaz rəhbərliyi və regional idarələrin rəhbərləri tərəfindən vətəndaşların qəbulu üçün hər cür imkan yaradılıb.

Qaz təchizatı kommunal sistemlər arasında ən təhlükəlisidir, burada adi diqqətsizlik, məsuliyyətsizlik çox ağır faciələrə gətirib çıxara bilir. Ona görə də, qazdan ayıq olmalıyıq. Evimizdə, obyektimizdə qaz təhlükəsizliyini təmin etməli, qaz cihazları ilə təlimata uyğun davranmalıyıq. Hər hansı bir problem aşkar olunduqda qaz istismar idarələrinə müraciət etmək lazımdır.

**Elçin Bayramlı**

SON SƏHİFƏ
SƏS
18 iyul
2023-cü il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Şimşək vurması zamanı nə etmək lazımdır?

*HƏKİM AYDINLIQ GƏTİRDİ*



Son günlər yay olmasına rəğmən havanın qəfil soyuması ilə yağışlı, ildırımlı hava şəraiti müşahidə olunur. İldırım çaxması isə təhlükəli təbiət hadisələrindən biridir və insanı ildırım vurması sağlamlığa ağır zərbələr vura, hətta ölümlə də nəticələnə bilir.

Şimşək vurması və bunun fəsadları barədə SİA-ya terapevt Abbas Bağırov danışıb: "Şimşək çaxması təbiət hadisələrindən biridir. Bu hadisə yer və buludlar arasında olan cərəyan boşalması nəticəsində meydana çıxır. Buludlarda yaranmış mənfi yüklər yerdə olan mənfi yüklərə istiqamət aldıqda işıqlı və gurultulu səsin müşayiəti ilə bu təbiət hadisəsi baş verir. Bu təbiət hadisəsinin baş verməsi də təbiət üçün əhəmiyyətli təhlükəli hadisələrdən biridir. Şimşək vurması isə yüngül, orta, ağır olmaqla dərəcələrinə görə bir-birindən fərqlənir. Dərəcələr əlamətlərinə görə bir-birindən fərqlənir. Əgər bədənin müvazinəti pozulursa, gözlər biraz qaralıb düzəlirsə, eşitmə müvəqqəti dayanıb bərpa edilirsə, başda kəskin və qəfil ağrı başlayırsa, bunlar ildırım vurmasının zəif əlamətləridir. Nisbətən güclü zərbə təsirləri olduqda, özünü daha ciddi əlamətlərlə göstərir. Huşun itirlməsi, eşitmənin zəifləməsi və tamamilə itməsi, iflic əlamətlərinin başlaması, yaddaşın itməsi qismən ağır dərəcəli ildırım vurmasının əlamətləridir. Bunlardan da ağır dərəcələrdə ürək, tənəffüs dayanır, canlılarda artıq geriyə dönməyən və bərpa olunması mümkün olmayan həyati proseslər gedir".

**Bəs şimşək vurması zamanı nə etmək lazımdır?**

Həkim vurğulayıb ki, ilk olaraq, təcili tibbi yardımı çağırmaq lazımdır: "Təcili tibbi yardım yetişənə qədər reanimasyon tədbirləri görməyə tələsmək lazımdır. Şimşək vurmuş adamın kliniki vəziyyəti müşahidə edilməlidir, əgər tənəffüsü, nəbzi yerindədirsə, göz bəbəklərində bioloji ölüm əlamətləri müşahidə edilmirsə, bu zaman təcili və təxirəsalınmaz reanimasiya tədbirlərə əl atmaq lazımdır. Əgər ilkin tibbi yardım tədbirləri göstərilməsə şimşək vurmuş insanın həyatını təhdid edən xüsusi təhlükələr yaranar. İldırım vurmuş xəstəni üstü örtülü məkana aparmaq lazımdır, paltarlarını çıxarmaq lazımdır. Əgər yanıqlarla müşayiət edilən dəri zədələri, travmatik və ya termiki yanıqları varsa bu zaman paltarı tamamilə soyundurmağa ehtiyac yoxdur çünki dəri toxumasının daha çox zədələnməsinə gətirib çıxara bilər. Xəstəni nəfəsini rahat ala biləcəyi şəkildə uzadıb üzərini isti örtüklə örtmək, sakitləşdirməyə çalışmaq lazımdır. Tənəffüs aktının pozulması, dil qatlanmasının (qıcolma) baş verməməsi üçün çənə sümüyünün arxa oynağını bir balaca önə tərəf sıxıb saxlamaq, qıcolma proseslərinin baş verməməsi üçün müşahidə edilməlidir. Vasitəli ürək masajı ilə ürək fəaliyyətini nəzarətə götürmək lazımdır. Ürək masajı ilə bir yerdə gərəkdiyi halda hər 5 saniyədə bir dəfə olmaq şərti ilə süni tənəffüs etməyə üstünlük verilməlidir ki, ağ ciyərlərin, diafraqmanın hərəkəti təmin edilsin, pasient nəfəs alıb verə bilsin. Nəbz hiss edilməyə başlayanda vasitəli masaja son vermək lazımdır. Şimşək vurması zamanı xəstəyə duzlu və soda qatılmış ilıq su içirtmək də faydalıdır. Bu, bədəndə elektronik balansını tənzimləyir. Ürək döyüntülərini tənzimləmək üçün karboral da vermək olar. Naşatır spirti qoxulatmaq da faydalıdır. Bundan başqa bir neçə təhlükəsizlik tədbirləri də vardır ki, güclü şimşək vurması, yağışlar, elektrik boşalmaları zamanı insanlar əməl etməlidir. Çünki şimşək çaxmalarında çox güclü elektrik gərginlikləri yaranır. Bu da öz növbəsində xüsusi təhlükəli vəziyyətdi və çox zaman şimşək vurmaları ölümlə nəticələnir. Hava yağışlı olduğu və şimşək çaxdığı zaman insanlar üzərindəki bütün metal əşyaları, cib telefonlarını, qol saatlarını, hətta kəmərlərdə olan metal detalları üzərindən ayırmalıdır. Mobil əlaqə dayandırılmalıdır, sakit, başını aşağı əyib yerdə oturmaq lazımdır. Hündür obyektlərdən - ağaclardan, elektrik diräklərindən uzaq durmaq lazımdır. Şimşək çaxması ilə bağlı təxirəsalınmaz tədbirlərlə bir yerdə profilaktik qaydalar da vardır və bunlara əməl edilməlidir".

***Aysel Naibli***



## Avropa İttifaqı 100 milyon avro ayıracaq: miqrantları Avropaya buraxmamaq üçün...

**Avropa İttifaqı miqrant təhlükəsinə qarşı kisənin ağzını böyük səxavətlə açıb. Belə ki, İttifaq Tunisə sərhəd nəzarətinin və qeyri-qanuni miqrasiya ilə mübarizə tədbirlərinin həyata keçirilməsi üçün 100 milyon avro ayıracaq. Bu bəyanatla Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen Al ilə Tunis arasında imzalanan anlaşma memorandumundan sonra mətbuata açıqlamasında çıxış edib.**

**Onun sözlərinə görə, bu məbləğ, həmçinin axtarış-xilasetmə əməliyyatları və sərhəd nəzarəti sahələrində tərəfdaşlığın dərinləşdirilməsi üçün istifadə olunacaq.**

## Açıqlandı: Azərbaycana gələn əcnəbilərin sayı artır



Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2023-cü ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasına dünyanın 181 ölkəsindən 918,8 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 43,9 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Dövlət Statistika Komitəsindən SİA-ya verilən xəbərə görə, gələnlərin 32,9 faizi Rusiya Federasiyası, 19,2 faizi Türkiyə, 7,7 faizi İran, 5,2 faizi Hindistan, 4,9 faizi Gürcüstan, 2,4 faizi Səudiyyə Ərəbistanı, hər birindən 2,3 faiz olmaqla Pakistan və Qazaxıstan, 2,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Özbəkistan, hər birindən 1,5 faiz olmaqla Belarus və Ukrayna, 1,3 faizi Küveyt, hər birindən 1,2 faiz olmaqla Böyük Britaniya və Türkmənistan, 12,5 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 72,2 faizini kişilər, 27,8 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Çindən gələnlərin sayı 7,2 dəfə, Türkmənistandan - 3,9 dəfə, Hindistandan - 3,1 dəfə, Belarusdan - 2,3 dəfə, Özbəkistandan - 2,2 dəfə, Qazaxıstandan - 1,9 dəfə, Rusiya Federasiyasından - 1,9 dəfə, İsraildən - 1,6 dəfə, ABŞ-dan - 44,2 faiz, Küveytdən - 37,2 faiz, Gürcüstandan - 35,5 faiz, Böyük Britaniyadan - 34,6 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 22,7 faiz, Pakistandan - 16,1 faiz, Türkiyədən - 15,9 faiz artıb, Səudiyyə Ərəbistanından gələnlərin sayı 23,6 faiz, İrandan - 14,9 faiz, Omandan - 9,9 faiz, Ukraynadan - 6,2 faiz azalıb. 2022-ci ilin yanvar-iyun ayları ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə artaraq 385,8 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 40,0 faiz artaraq 46,7 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 8,9 faiz azalaraq 134,2 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 68,8 faizi hava, 29,8 faizi dəmir yolu və avtomobil, 1,4 faizi isə dəniz nəqliyyatından istifadə edib.



## Ronaldo Messini üstələdi: Təkcə bu il 121 milyon avro qazanıb!

Portuqaliyalı superstar Kriştiano Ronaldo yenidən dünyanın ən çox qazanan idmançısıdır. Belə ki, 2017-ci ildən sonra portuqaliyalı ilk dəfə olaraq "Forbes" jurnalının siyahısında ən çox qazanan idmançıların reytinqinə başçılıq edir. Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun futbolçusu ən çox illik gəlirin sahibi kimi dərhal Ginnesin Rekordlar Kitabına düşüb. 2023-cü ildə "Əl-Nəsr"ə transfer olunduqdan sonra o, 121 milyon avro qazanıb. Əvvəlki rekord 2022-ci ildə PSJ-nin oyunçusu kimi 92 milyon avroya yaxın qazanan Messiyə məxsus idi.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4000**